# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## "Kəssə hər kim tökülən qan izini"



7

# SƏS

№ 195 (7363)

24 oktyabr 2025-ci il.
Qiyməti 60 qəpik

## 270 illik zamanın axarını dəyişən LİDER!



2

*22 il... Heç də uzaq keçmiş deyil. Hər birimizin yaşadığımız, hər ayına, anına şahidlik etdiyimiz zaman kəsiyidir.*

## Azərbaycan bayrağını Xudafərin körpüsünə sancan qəhrəmanımız



10

# Paşinyan-Kilsə savaşı qızışır



4

Mal əti ilə bağlı problem nədən qaynaqlanır?



5

## Vətəndaş maaşdan tutulmalardan imtina edə bilərmi?



16

## Bakıdan Ermənistana SÜLH və ÇÖRƏK MESAJI...



5

## Yer kürəsi tükənməyə doğru gedirmi, yoxsa dəyişməyə məhkumdur?



12

# 270 illik zamanın axarını dəyişən LİDER!





***22 il... Heç də uzaq keçmiş deyil. Hər birimizin yaşadığımız, hər ayına, anına şahidlik etdiyimiz zaman kəsiyidir. Elə bu səbəbdən də ötən 22 il hər bir hadisəsi ilə gözlərimiz önündə olduğu kimi canlanır: Düşünülmüş siyasət nəticəsində Azərbaycanın gündən-günə inkişafı, tərəqqisi ilə canlanır. Dövlətimizin sıravi vətəndaşından tutmuş müəllimə, həkimə, mühəndisə, elm xadimlərinə, uşaqdan-böyüyə hər kəsə qayğısı ilə canlanır.***





Dövlət rəhbərinin ölkənin qaçqınına, köçkününə, şəhidinə, qazisinə, ümumilikdə hər bir vətəndaşına ehtiramı ilə canlanır. Ötən 21 ildə ölkənin iqtisadi gücünün ordu quruculuğuna yönəldilməsi, torpaqlarımızın bir gün işğaldan azad olunması üçün böyükmiqyaslı tədbirlərin həyata keçirilməsi ilə canlanır.

Ordu quruculuğu məsələsinin üzərində bir qədər dayanmaq istərdim. Çünki ötən 22 il daha çox torpaq və ordu ifadələri ilə yaddaşlarda qalıb. Çünki ölkəmizdə insanlar illərlə torpaq həsrəti ilə yaşayıb. Şərəf məsələsi olduğu üçün bu, ümumilikdə hər bir vətəndaşın problemi idi. Xalq hərtərəfli inkişaf edən bir ölkədə yaşasa da, onun "Qarabağ" adlı 30 illik bir dərdi vardı ki, sağalmasını, şəfa tapmasını gözləyirdi. Məcburi köçkünlərimiz yurd həsrəti ilə rahatlıq tapa bilmirdi. Onlar öz torpaqlarını istəyirdi. Qarabağ Azərbaycanın yarası idi. Həmin yara sağalardısa, Azərbaycan tam ola bilərdi. Bunu isə yalnız dövlətin başçısı, Ali Baş Komandan, milli ordunun sərkərdəsi həll edə bilərdi.

Xalq Qarabağın daha tez, hətta 90-cı illərdə işğaldan dərhal sonra azad olmasını arzulayırdı, lakin ölkənin buna imkanları çatırdımı? Bu arzu yalnız ölkə buna hazır olanda reallaşa bilərdi. Elə ötən 22 ilin prioriteti də məhz bu məsələnin üzərində qurulmuşdu. Buna görə də 270 illik zamanın axarını dəyişə bildi. Tarixin yeni bir səhifəsini açmaqla, "işğal" sözünü "azad" sözü ilə əvəz edə bildi.

## Yeri gələndə tarixçi, coğrafiyaçı, siyasətçi, yeri gələndə sıravi azərbaycanlı LİDER

Zaman göstərdi ki, məhz Heydər Əliyev və Zərifə xanım Əliyeva kimi dahi insanların, gözəl ata-ananın, ləyaqətli vətəndaşların, ictimai xadimlərin, vətənpərvər insanların ailəsində İlham Əliyev kimi övlad böyüyə bilərdi. Bu övlad ailənin bütün üstün cəhətlərindən zaman-zaman aldığı dəyərlərlə yumruğu boyda ürəyinə Azərbaycan böyüklükdə Vətən sevgisini elə sığdıracaqdı ki, bu sevgi bir gün xalqın, millətin xilasına çevriləcəkdi. 30 il işğal olunan torpaqlara görə başını dik tuta bilməyən xalqın başını zirvələrə qaldıracaqdı. Xalqa qürurunu, namusunu, iffətini qaytaracaqdı. Azərbaycanın işğal olunan torpaqlarının azad olunması ilə tarixin 270 illik zaman kəsiyinin axarını dəyişəcəkdi.

Deyirlər, yaxşı ataların yaxşı oğulları olur. Ulu Öndər Heydər Əliyevin Azərbaycana məhəbbətinin, sevgisinin, torpaqlarımızın işğalına ürək ağrısının, onların bir gün geri qaytarılması üçün mübarizələrinin davamını cənab İlham Əliyevdə gördük. Gördük ki, O, tək ailəsinə məxsus övlad yox, ümumilikdə Azərbaycan xalqının övladı oldu. Gördük ki, dövlətimizin başçısı kimi fəaliyyət dövrünün hər anı ölkəmizin inkişafına, dünyada tanınmasına, bir də ata nəsihətlərinin həyata keçirilməsinə sərf edilib. Gördük ki, Qarabağ məsələsi bir an da unudulmayıb. Liderimizin bütün bayramlarda xalqa müraciətlərdə Qarabağın bir gün azad olunacağına əminliyini dinlədik. Bu torpaqların düşmən tapdağı altında inləməsini ürək yanğısı ilə yaşadığını hiss etdik. Onların bir gün yenə də bizim olacağına xalqı əmin etdiyini gördük...

Prezidentimiz ən mötəbər tədbirlərdə Qarabağla bağlı dünyaya üz tutdu. Qarabağ həqiqətlərini onlara çatdırdı. Bütün dünyanı haqq səsimizə səs verməyə çağırdı. Bu qədim torpaqların Azərbaycana məxsusluğunu tarixi faktlarla sübut etdi. Bizim Prezidentimiz yeri gələndə tarixçi oldu, yeri gələndə coğrafiyaçı, yeri gələndə siyasətçi, yeri gələndə sıravi azərbaycanlı. Mükəmməl olaraq rus və ingilis dillərdə mötəbər kürsülərdəki səlis nitqləri ilə bir tərəfdən azərbaycanlı olduğu, bizim Lider olduğu üçün, digər tərəfdən isə xalqın istəklərini aydın çatdırdığı üçün qürur duyduq.

Bizim Prezidentimiz Azərbaycanın sülhün tərəfində dayandığını bütün dünyaya bəyan etdi. Dünyanı sülhə çağırdı. Ermənistanın dinc yolla torpaqlarımızı qaytarmasını tələb etdi. Liderimiz ikinci yolu da birinci yolla paralel inkişaf etdirirdi. Bu, hərb yolu idi. Dəfələrlə çıxışlarında, beynəlxalq tədbirlərdə açıq şəkildə bildirirdi ki, torpaqlarımız sülh yolu ilə qaytarılmazsa, hərb yolunu seçməli olacağıq. Belə də oldu. İkinci yolun harada və nə vaxt başlayacağını böyük uzaqgörənliklə hazırlayan cənab İlham Əliyev dünyanın qulaqlarının sülh çağırışına kar olduğunu bir daha yəqin edəndən sonra, ikinci yola çıxmağın zamanını bəyan etdi. Bu yol Ermənistanın yeni torpaqlar iddiasına dərhal verilən cavabla başlandı. 27 sentyabr 2020-ci il Qarabağın azadlığına gedən yol oldu. Cəmi 44 gün davam edən İkinci Vətən Müharibəsi Azərbaycan xalqının böyük Zəfəri ilə bitdi və tarixin 270 ildən artıq axarını dəyişib göstərdi ki, analar dünyaya 200-300 ildən bir elə oğullar gətirir ki, o oğullar zamana hökm oxuya bilir...

## 90-ların səhvini 2020-də düzəldən LİDER

Qarabağın işğalı 1990-cı ildə Azərbaycanda hakimiyyətdə olan AXCP-Müsavat qruplaşmasının tarixin də, bu xalqın da bağışlamayacağı səhvi idi. Vəzifədə qalmaq, kürsülərini qorumaq üçün rus imperiyasının son qalıqlarına satılan, torpaqlarımızı Ermənistana hədiyyə etməklə yerlərini möhkəmlətmək istəyən bir qruplaşmanın böyük səhvi idi. Bu, səhvdən də çox ağıla gəlməyən qəbahət idi. Satqınlıq, Vətənə xəyanət, millətə qarşı günah idi. Sən vəzifə üçün bir xalqın dədə-baba yurdunu, əzəli torpaqlarını necə sata bilərsən? Necə razılaşmaq olardı ki, erməni gecənin birində sənin soydaşının qapısında peyda olsun, onu silahın burnunda evindən çıxarıb qışın şaxtasında, ayazında yurdundan qovsun, insanlar yurdsuz, ev-eşiksiz qalsın, illərlə dişi-dırnağı ilə qurub-yaratdığı evini qoyub, dədə-baba ocağını tərk etsin. Nədir ki, sən vəzifədə qalasan, ağılsız olduğun halda hakimiyyəti zəbt edəsən.

Bəli, Qarabağ 90-cı illərin hakimiyyət vurğunlarının qurbanı olmuşdu. Minlərlə insanın ah-naləsini hələ də çiyinlərində daşıyan qruplaşmanın satqınlığının qurbanı olmuşdu. Bunu xalq sonradan bildi, AXCP-Müsavat birliyinə etimadını itirdi. Onlarin hakimiyyətdən uzaqlaşmasını tələb etdi. Çünki gözlərinin qarşısında məcburi köçkünlükdə əzab çəkən minlərlə insan vardı. Azərbaycanın işğal olunan baş tacı Qarabağ vardı. Bir də bu işğala görə başını dik tuta bilməyən xalq vardı. Nə vaxt, harada Qarabağdan söz düşürdüsə, başımızı aşağı dikirdik.

*Ardı Səh. 3*

# 270 illik zamanın axarını dəyişən LİDER!






Əvvəli-Səh-2

Utanırdıq torpaqlarımızın işğal altında olmasından. Bütün bunları isə xalqa onlar bəxş etmişdi.

Cənab İlham Əliyev 90-ların səhvinin düzəldilməsi üçün uzun illər mübarizə apardı. 90-cı illərdə iqtisadi tənəzzülə uğrayan ölkənin bu vəziyyətini 1993-cü ildən etibarən aradan qaldıran, Azərbaycanda yeni Azərbaycan yaradan, bu qruplaşmanı xalqın yaxasından qoparıb atan Ümummilli Liderin gələcəyə hesablanmış inkişaf konsepsiyasını 2003-cü ildən uğurla davam etdirən dövlətimizin başçısı böyük zəhmət nəticəsində 2020-ci ildə torpaqlarımızın işğaldan azad edilməsinə nail oldu.

Böyük itkilər verdiyimiz 44 gündə Zəfər qazandıq. Bu itkilərin də səbəbkarları onlardır-AXCP-Müsavat. Onların səhvləri düzəldilsə də, torpaqlarımız azad edilsə də, Böyük Qayıdış başlansa da, yaxın gələcəkdə soydaşlarımız tamamilə ata-baba yurdlarına qayıtsalar da, AXCP-Müsavat birləşməsinin üzvlərinin bu xalqa vurduğu maddi və mənəvi zərər heç vaxt unudulmayacaq.



### Azərbaycan gəncliyinə nümunə LİDER

Heydər Əliyev və Zərifə xanım Əliyevanın böyüdüb tərbiyə etdiyi övladı öncə ata-anadan, ailədəki dəyərlərdən, sonra isə xalqın bu ailəyə etimadından, böyük Heydər Əliyevə nüfuzundan, onun mənəvi və siyasi varisinin Heydər Əliyev yolunu uğurla davam etdirəcəyinə böyük inamından aldığı güclə böyük Liderə çevrilə bildi. Xalq öz Liderinin ətrafında sıx birləşdi. Müharibədə Prezidentimizin düşmənə göstərdiyi dəmir yumruğun rəmzi mənası var idi. Bu, bütün xalqın gücünü özündə toplayan bir yumruq idi. Düşmənin üzərinə endirilən birgə həmlə idi.

Xalqın birlik, həmrəylik nümayiş etdirməsi öz Liderinə inamından, arxalanmasından irəli gəlirdi. Gənclərimizin cəbhəyə axın etməsi, səfərbərlik məntəqələri qarşısında gecəli-gündüzlü Ali Baş Komandanın əmrini gözləməsi ötən 30 ilin əvvəlindəki hakimiyyət nümayəndələri ilə müqayisə belə edilə bilməyəcək bir Liderə sahib olmağımızın nəticələri idi.

Minlərlə gəncimizin böyük sərkərdənin bir əmri ilə döyüşə yollanması gənc nəslin dövlətinin başçısına etimadının göstəricisi idi. Hansı ki, Ermənistan tərəfdə vəziyyət heç də belə deyildi. Bu, baş nazir Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyan tərəfindən də etiraf olundu. Onun söylədiyinə görə 2020-ci ildə 44 günlük müharibədə Ermənistan ordusunun təxminən 25%-i - 11 min nəfəri fərarilik edib, döyüşlərdən qaçıb. O, Paşinyanın və özünün könüllü cəbhəyə yollanmaq üçün erməni xalqına müraciətlərinə, çağırışlarına da cəmiyyətdən tutarlı reaksiya gəlmədiyini etiraf etdi. Başqa sözlə, erməni gəncləri Paşinyanın çağırışlarını cavabsız buraxıb - zorla ordu sıralarına cəlb edilənlər isə çıxış yolunu qaçmaqda görüb.

Bizim gənclərin vətənpərvərliyi isə cənab İlham Əliyevin fəaliyyəti dövründə Azərbaycanda yarada bildiyi ictimai mühitin bəhrələri idi. Vətəndaşına yanaşmasının, hər yaş qrupundan olan insanlara eyni qayğı göstərməsinin, gənclər üçün yaradılan hərtərəfli şəraitin, ən əsası isə onlara vətənpərvərliyin aşılanmasının nəticələri idi.

Bizim Prezidentimiz Azərbaycan gəncliyinə özü bir nümunə idi. Gənclik Liderimizin beynəlxalq kürsülərdə səsləndirdiyi fikirləri sosial şəbəkələrdə paylaşırdı. Liderimizin müharibə dövründə xarici mətbuat nümayəndələrinə verdiyi onlarla müsahibədəki qətiyyətli cavablar hər bir gəncin sosial şəbəkə manşetinə çevrilmişdi. Bu gün də elədir. Bu gün Azərbaycanda Prezidentimizin fəaliyyətini, dəyərli fikirlərini dərhal gənclərimizin sosial şəbəkələrdəki paylaşımlarında görmək olur. Bu, inamdır, arxalanmaq, etibar etməkdir. Bir də xalqın Liderinə sevgisidir. Bu sevgi isə düz sərhədlərimizə qədər uzanır. Ölkəmizin sərhədlərinin, ərazi bütövlüyünün qorunması üçün hər kəsin sinəsini sipər etməsini şərtləndirir.

### Xalqını xoşbəxt gələcəyə aparan LİDER

2023-cü ilin 20 sentyabrında Xankəndidə aparılan birgünlük lokal xarakterli anti-terror əməliyyatı isə Azərbaycanın konstitusiya quruluşunun və ərazi bütövlüyünün təmin olunması ilə nəticələndi. Beləliklə, Azərbaycan bütövləşdi. Bu Zəfər 270 ilin Zəfəri oldu.

Bu gün Qarabağda yenidənqurma və bərpa işləri davam edir. Müharibədən dərhal sonra başlanan işlərin sürətlə aparılası soydaşlarımızın evlərinə daha tez qayıtmasına xidmət edir. Qarabağın inkişaf etdirilməsi, hər bir işğaldan azad edilmiş rayonumuzla bağlı Liderimizin fikirləri bu yurdların yaxın gələcəkdə böyük inkişafından xəbər verir.

Zəngəzur dəhlizinin açılması ilə bağlı görülən işlər isə nəinki xalqımızın, region dövlətlərinin də gələcək inkişafına hesablanmış addımdır. Ermənilər üçtərəfli 10 noyabr Bəyannaməsində üzərlərinə düşən öhdəliklərin icrasını gecikdirməyə çalışsalar da, bizim Liderimiz bütün məsələlərin həllinin öhdəsindən gələcəkdir. Çünki artıq dünyanın böyük ölkələri də bizi dinləyir, haqqın tərəfimizdə olduğunu anlayır.

Beləliklə, Qərbi azərbaycanlıların öz ata-baba torpaqlarına qayıtması, Zəngəzur dəhlizinin açılması, Naxçıvan blokadasının yarılması kimi gündəmdə olan məsələlərimiz yaxın gələcəkdə öz müsbət həllini tapacaqdır. Çünki bütün bunların hər biri ayrı-ayrılıqda Prezidentimizin diqqətindədir və görülən işlər, aparılan danışıqlar müsbət yöndədir.

Azərbaycan xalqı inandığı, etibar etdiyi, arxalandığı və sevdiyi Lideri ilə xoşbəxt gələcəyə doğru bir yolçuluğa çıxıb. Bu yolçuluqda hər an Ümummilli Liderimiz Heydər Əliyevin və xalqımıza müzəffər sərkərdə bəxş edən Zərifə xanım Əliyevanın parlaq ruhları bizimlədir. Çünki ağsaqqal, ağbirçək olan yerdə Allah var. Ata vəsiyyətini reallaşdıran və bunu Şuşanın alındığı gün Bakıda Şəhidlər Xiyabanında böyük qürurla söyləyən Prezidentimiz xalqımızın çoxəsrlik ailə dəyərlərini qoruması ilə də nümunə oldu.

Nə xoşdur ki, Qarabağımızı-torpaqlarımızı, şərəf və namusumuzu xilas edən LİDERİMİZ var. Nə xoşdur ki, övladlarımız hər addımı Liderləri və dostları cənab İlham Əliyevdən öyrənir. Öyrənirlər ki, onlar da əsl övlad, əsl vətəndaş ola bilsinlər. Öyrənirlər ki, zamanın 270 illik axarını dəyişən 22 ilin daha parlaq gələcəyində də dövlətimizin başçısının arxasınca gedə bilsinlər.

Artıq qarşıda yeni bir yol var. Bu yol bütövləşmiş Azərbaycanın müasir çağının inkişafına aparır. Dövlətimizin başçısının dediyi kimi: Bizim əsas milli ideyamız ərazilərimizi azad etmək idi. Yəni, bütün xalq bu ideya ətrafında, bu amal ətrafında birləşmişdi, biz bunu artıq əldə etmişik. Ona görə gələcək inkişafla bağlı, əlbəttə ki, mənim fikirlərim var və bir çox hallarda onlar həlledici olacaq təbii ki. Ancaq mən istərdim ki, cəmiyyətdə də bu məsələ ilə bağlı diskussiyalar getsin, siyasətçilər, politoloqlar, elm adamları, ziyalılar, yəni, bizim gələcək inkişafımızla bağlı əsas milli ideya və ideyalarımız nə olmalıdır. Bu, bir ictimai müzakirə mövzusu olmalıdır.

Beləliklə, cənab Prezidentlə Bütöv Azərbaycan naminə yeni milli ideyalara doğru birgə addımlayaq: ölkəmizin bu milli ideyalara əsaslanan yeni dövrünü görmək üçün.

***Mətanət Məmmədova***

***Ermənistanda sülhə alternativ axtaranlar hələ də kifayət saya malikdirlər. “Eks”lər, rusiyapərəstlər, kilsənin diktəsi ilə “bəlkə də qaytardılar” aforizminə sadiq qalanlar zaman maşınının geri fırlanacağı düşünənlər, bir sözlə bir qrup cahil hələ də çərxi-fələyin ətəyindən yapışıb Azərbaycan torpaqlarında fironluq etdikləri dövrə qayıtmağı arzu edirlər. Amma zaman maşını da, çərxi-fələyin arabası da onlar üçün xarab olub, işlək halda deyil. Müxalifətin çaldığı “balalayka”nın havasına oynayanlar tək-tükdür, ümid qalıb kilsəyə. Ermənistan hökumətinin başçısı Nikol Paşinyan isə növbəti dəfə kilsənin ali iyerarxlarına qarşı ittihamlar səsləndirib.***

# Paşinyan-Kilsə savaşı qızışır



Ermənistanın baş naziri Nikol Paşinyan tarixi abidə statusunda olan, hökumətin kitablarında olan və Erməni Apostol Kilsəsinə pulsuz istifadə üçün bağışlanan bəzi kilsə və monastırları kilsədən alacağı ilə hədələyib. Paşinyan hesab edir ki, bu kilsələrdə mənəvi həyat yoxdur və orada intriqalar, müxtəlif süjetlər hörülür. Hökumət “bu kilsələri cəmiyyətə qaytarmaq” üçün bütün mənəvi və hüquqi rıçaqlara malikdir. Parlamentdə hökumət saatı zamanı baş nazir bir daha katolikos II Qaregini onun subaylığını pozmaqda ittiham edib və əlavə edib ki, hökumətin kilsə ilə heç bir münaqişəsi yoxdur. ”Bizim münaqişəmiz Eçmiədzinin ana taxtını qəsb edən və təhqir edən bir qrup şəxslədir” deyib.

Əvvəllər Hovhannavank monastırının abbatı Stepan (Aram) Asatryanı müdafiə edən Paşinyan indi Ermənistan Apostol Kilsəsinin (EAK) yüksək iyerarxlarını nəzərdə tutaraq, “özləri də soyulmuşların” keşişi soymağa haqqı olmadığını bəyan edib. O, Asatryanın elan etdiyi gələn bazar günü Hovhannavankdakı liturgiyada şəxsən iştirak etmək niyyətini bir daha təkrarlayıb. Ermənistan hakimiyyəti ilə Erməni Apostol Kilsəsi arasında qarşıdurma baş nazir Nikol Paşinyanın sosial şəbəkələrdə yüksək rütbəli ruhaniləri tənqid edən sərt bəyanatlarından sonra daha da böyüyüb. Daha sonra hökumət başçısı bütün ermənilərin katolikosunun seçilməsi prosedurunun dəyişdirilməsini təklif edərək, bu prosesdə dövlətin əsas rol oynamasını təklif edib. O, həmçinin katolikosu sıxışdırıb çıxarmaq üçün hərəkata şəxsən rəhbərlik etmək niyyətindədir. Qeyd edək ki, hakimiyyətlə Erməni Apostol Kilsəsi arasında baş verən qarşıdurmadan sonra arxiyepiskoplar Baqrat Qalstanyan və Mikael Ajapaxyan, yepiskop Mkrtiç Proşyan və Muğni kəndindəki Surb Gevork monastırının abbatı Qaregin Arsenyan müxtəlif ittihamlarla həbs ediliblər.

### “Çete” başçısı da danışdı

Ermənistanın keçmiş prezidenti, Xocalı qatili Serj Sarkisyan əmin olduğunu bildirib ki, katolikos bundan sonra da millətin və kilsənin maraqlarını qətiyyətlə müdafiə edəcək. Üçüncü prezident Serj Sarkisyan hesab edib ki, hakimiyyətin kilsəyə hücumları yalnız onu gücləndirir. O, baş nazir Nikol Paşinyanın katolikos II Qareginə və digər din xadimlərinə qarşı davam edən ittihamları ilə bağlı jurnalistlərin suallarına cavab verib. Sarkisyan əmindir ki, katolikos öz missiyasına qətiyyət və sadiqlik nümayiş etdirəcək. “Psixi sağlamlıq problemi olan, kinlə dolu biri və ya düşmənin əmrlərini yerinə yetirən kimsə Kilsəyə qarşı mübarizəyə başlaya bilər... Amma hamımız bilirik ki, kilsənin təqibi onu yalnız gücləndirir”, - Sarkisyan deyib.

Oktyabrın 22-də Ermənistanın baş naziri parlamentdə tarixi abidə statusuna malik olan və pulsuz istifadə üçün Erməni Apostol Kilsəsinə verilmiş bəzi kilsə və monastırları kilsədən müsadirə etməklə hədələyib. Paşinyan hesab edir ki, bu kilsələrdə mənəvi həyat yoxdur və intriqaların və müxtəlif sxemlərin meydanıdır. Hökumət “bu kilsələri cəmiyyətə qaytarmaq” üçün bütün mənəvi və hüquqi rıçaqlara malikdir. Parlamentdə hökumət saatı zamanı baş nazir bir daha katolikos II Karekini onun subaylığını pozmaqda ittiham edib və əlavə edib ki, hökumətin kilsə ilə heç bir münaqişəsi yoxdur.

Kilsəyə qarşı kampaniya psixi pozğunluqlardan əziyyət çəkən və ya tamamilə şərlə dolu olan və ya düşmənin əmrlərini yerinə yetirən biri tərəfindən başlana bilər. Bunu da Serj Sarkisyan oktyabrın 22-də məhkəmə binasının həyətində jurnalistlərə açıqlamasında deyib. “Bu rejimin nümayəndələrinin nə müqəddəsliyi, nə əxlaqı, nə də ləyaqəti var”-deyə Sarkisyan bildirib. Serjik qeyd edib ki, o, istənilən şəraitdə Erməni Apostol Kilsəsini və Həzrətlərini dəstəkləyir. “Patriarx Əlahəzrətlərinin bir çağırışı ilə biz Ermənistan Respublikasının istənilən yerində, istənilən kilsədə ayağa qalxmağa hazırıq”, o əlavə edib.

Ermənistanın üçüncü prezidenti Serj Sarkisyan Qazaxıstan taxılının Azərbaycan üzərindən Ermənistana çatdırılmasını logistik baxımdan əlverişsiz adlandırıb. Jurnalistlərlə söhbətində qeyd etdiyi kimi, bu, ən qısa, nə də ən sərfəli çatdırılma yolu deyil. ”Əgər bu, məsələn, qiymətlərin azalmasına gətirib çıxararsa, o zaman mən yalnız buna sevinərəm. Bunun təhlükəsizlik məsələlərinə heç bir aidiyyəti yoxdur”, - Ermənistanın üçüncü prezidenti vurğulayıb. Bununla belə, Ermənistan və Azərbaycan arasında sülh prosesinə toxunan Serj Sarkisyan qeyd edib ki, o, indiki şəraitdə və şərtlər daxilində bunun necə mümkün olacağını başa düşmür. “Əlbəttə, bu sülh sabitdirsə, onda mən yalnız müsbət şeyləri görürəm. Təhdidlərə gəlincə, biz başa düşməliyik ki, onlar həmişə mövcud olacaq, ya yox”, - Serj Sarkisyan yekunlaşdırıb.

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev bundan əvvəl Ermənistana yüklərin tranzitinə qoyulan bütün məhdudiyyətlərin götürüldüyünü bəyan edib. O, ilk belə tranzit yükün Qazaxıstan taxılının Ermənistana göndərilməsi olduğunu qeyd edərək, bunun artıq praktikada ölkələr arasında sülhün mövcud olduğunu nümayiş etdirdiyini bildirib. Ermənistan Azərbaycan Prezidentinin bəyanatını alqışlayıb və bunun regional kommunikasiyaların açılması üçün böyük əhəmiyyət daşıdığını qeyd edib.

### Köçəryan şahiddir, Sarkisyan torpaq satıb

İstintaq altında olan sövdələşmə 2005-ci ildə, Köçəryan prezident, Sarkisyan isə müdafiə naziri vəzifələrində çalışarkən bağlanıb. Torpaqlar Müdafiə Nazirliyinin mülkiyyətində idi. Ermənistanın ikinci prezidenti Robert Köçəryan onun xələfi Serj Sarkisyana qarşı açılan işdə şahid qismində tanınırdır. Bu barədə məhkəmə iclasında prokuror Qorik Hovakimyan məlumat verib. Bu cinayət işi Yerablur hərbi panteonunun yaxınlığındakı torpaq sahələrinin özəlləşdirilməsindən gedir. İstintaq altında olan sövdələşmə 2005-ci ildə, Köçəryan prezident, Sarkisyan isə müdafiə naziri vəzifələrində çalışarkən bağlanıb. Torpaqlar Müdafiə Nazirliyinin mülkiyyətində idi. Prokurorun sözlərinə görə, onlar Ermənistanın Rusiyadakı səfiri, müstəntiqlərin fikrincə, sövdələşməyə bağlı olan Qurgen Arsenyanı və Serj Sarkisyanın təhlükəsizlik xidmətinin keçmiş rəhbəri Vaçaqan Kazaryanı da şahid qismində çağırmağı planlaşdırırlar.

### Media redaktorları Paşinyana qarşı

Yerli media nümayəndələri qeyd ediblər ki, hakimiyyətin Stepan Asatryanın elan etdiyi görüşü erməni kilsəsinə qarşı genişmiqyaslı etiraza çevirə biləcəyi və bunun qarşıdurmalara səbəb ola biləcəyi ilə bağlı ciddi narahatlıqlar var. Ölkə hakimiyyətini bütün mümkün vasitələrlə erməni kilsəsinin rəhbərliyinə qarşı tədbirlər görməkdən çəkindirmək vacibdir. Bu barədə Ermənistanın bir sıra kütləvi informasiya vasitələrinin rəhbərlərinin ölkədə akkreditə olunmuş diplomatik nümayəndəliklərə və beynəlxalq təşkilatların nümayəndəliklərinə ünvanladığı məktubda deyilir. Məktubda qeyd olunduğu kimi, ölkə Konstitusiyasına əsasən, Erməni Apostol Kilsəsi dövlətdən ayrıdır və hər hansı məmurun onun işinə qarışması vəzifə səlahiyyətlərindən sui-istifadə və Konstitusiyanın, habelə “Vicdan azadlığı və dini qurumlar haqqında” qanunun pozulması deməkdir. Bu arada baş nazir Nikol Paşinyanın erməni apostol kilsəsinə qarşı düşmənçilik və nifrət elementlərini ehtiva edən bəyanatları cəmiyyətdə parçalanmaya səbəb olur.

Media nümayəndələri yüksək rütbəli ruhanilərin qanunsuz həbsləri ilə müşayiət olunan hökumətin kampaniyasının yeni mərhələsinin mümkünlüyünə inanırlar. Qapısını dəyişdirmiş Stepan Asatryan (keçmiş keşiş Aram Asatryan) oktyabrın 26-da Paşinyanın iştirak edəcəyinə söz verdiyi liturgiya keçirməyi planlaşdırır. Bundan əvvəl o, Eçmiədzinin Ana Taxtını “azad etmək” niyyətini ən vulqar ifadələrlə bəyan etmişdi. Hakimiyyətin Stepan Asatryanın görüşünü erməni kilsəsinə qarşı genişmiqyaslı etiraza çevirə biləcəyi ilə bağlı ciddi narahatlıqlar var. Məktubda deyilir ki, erməni kilsəsinin çoxsaylı ardıcıllarının onun müdafiəsinə çıxa biləcəyini nəzərə alsaq, bu cür etiraz potensial toqquşmalarla doludur. “Baş verənlərin hamısı hüquqi və demokratik dövlət ideologiyasına, vicdan azadlığına tamamilə ziddir, insanların vicdan və inamını təhqir edir”, - məktubda bildirilir.

Ermənistan hakimiyyəti ilə Erməni Apostol Kilsəsi arasında qarşıdurma baş nazir Nikol Paşinyanın sosial şəbəkələrdə yüksək rütbəli ruhaniləri tənqid etdiyi sərt bəyanatlarından sonra daha da artıb. Daha sonra hökumət başçısı bu prosesdə dövlətin əsas rolunu öz üzərinə götürərək bütün ermənilərin katolikosunun seçilməsi prosedurunun dəyişdirilməsini təklif etdi. O, həmçinin katolikosu devirmək hərəkatına şəxsən rəhbərlik etmək niyyətindədir. Əvvəllər Hovhannavank monastırının abbatı Aram (dünyəvi adı Stepan) Asatryanı müdafiə edən Paşinyan bu gün Ermənistan Apostol Kilsəsinin yüksək iyerarxlarını nəzərdə tutaraq, “özləri də soyulmuşların” keşişi soymaq hüququna malik olmadığını bəyan edib.

### Eçmiədzində qanun pozuntuları

“Hədiyyə paylanması” “Ermənistan Cinayət Məcəlləsinin 221-ci maddəsi ilə qadağan edilmiş əməli ehtiva edir”. “Məlumatlı Vətəndaşlar Birliyi” ictimai təşkilatı “Mülki Müqavilə” (MM) partiyasının Eçmiədzində törətdiyi aşkar qanun pozuntuları ilə bağlı Ermənistan Baş Prokurorluğuna şikayət edib. Bu barədə QHT-nin yaydığı məlumatda deyilir. Bəyanatda xüsusilə qeyd olunur ki, noyabrın 16-da Eçmiədzində yerli özünüidarə orqanlarına seçkilər keçiriləcək. Oktyabrın 21-də icmanın kəndlərindən birində (itlər) ”MM” partiyasının bir neçə namizədinin iştirakı ilə xeyriyyə aksiyası keçirilib, bu barədə jurnalist Lia Sarkisyan məlumat verib. Tədbir zamanı çoxsaylı icma sakinlərinə qiymətli hədiyyələr təqdim olunub. Yuxarıda göstərilənlər Ermənistan Respublikası Cinayət Məcəlləsinin 221-ci maddəsi ilə qadağan edilmiş əməli təşkil edir. Bu hadisə ilə bağlı cinayət işi açılıb və Ermənistan Baş Prokurorluğuna göndərilib.

Eçmiədzində adı çəkilən jurnalist həmçinin kommunal xidmət işçilərinin (və ya ictimai işlər idarəsinin) iş vaxtı (rəsmi vəzifələrini yerinə yetirmək əvəzinə) kampaniyada iştirakını sənədləşdirib. Üstəlik, nəşrdə bildirilir ki, kommunal xidmət işçiləri rəhbərlərin göstərişi ilə hərəkət edərək, ictimai avadanlıqlardan istifadə edərək, qadağan olunmuş yerdə plakat yerləşdiriblər. Yuxarıda göstərilənlər Ermənistan Respublikası Seçki Məcəlləsinin 23-cü maddəsinin iddia edilən pozuntusunu təşkil edir. Bu hissə ilə bağlı cinayət işi də Baş Prokurorluğa təqdim olunacaq. Etirazçılar Mülki Müqavilə partiyasını seçki kampaniyasına ictimai vəsaitlərin açıq şəkildə israf edilməsini dayandırmağa çağırıblar.

**V.VƏLİYEV**

# “Görüş ictimai diplomatiyanın yeni mərhələsinə keçid kimi dəyərləndirilə bilər”



MÜNASİBƏT

“21–22 oktyabr tarixlərində İrəvanda keçirilən Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələrinin ilk ikitərəfli dəyirmi masası Vaşinqtonda 8 avqust 2025-ci ildə imzalanmış Birgə Bəyanatın ruhuna uyğun olaraq regionda sülh təşəbbüslərinin sosial bazasını formalaşdırmaq istiqamətində əhəmiyyətli addımdır”. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Azər Kərimli deyib.Deputat bildirib ki, bu görüş dövlət strukturlarının dəstəyi ilə reallaşdığı üçün onu sırf QHT təşəbbüsü deyil, rəsmi sülh gündəminin ictimai təbəqəyə transferi kimi qiymətləndirmək olar: “Belə dialoqlar siyasi danışıqlarla paralel olaraq qarşılıqlı etimadın və informasiya şəffaflığının artmasına xidmət edir.Müzakirələrdə humanitar əlaqələr, iqtisadi və logistika imkanları, eləcə də etimadın bərpası üçün konkret addımlar önə çıxıb. Bu, Azərbaycanın “praktik sülh” konsepsiyasına – yəni kommunikasiya, ticarət və humanitar sahələrdə əməkdaşlıq vasitəsilə sabitliyin möhkəmləndirilməsinə uyğundur. Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanla görüş isə göstərir ki, İrəvan tərəfi də bu formatı siyasi səviyyədə tanımağa meyllidir. Ümumilikdə, İrəvanda keçirilən bu görüş regionda post-münaqişə mərhələsində ictimai diplomatiyanın yeni mərhələsinə keçid kimi dəyərləndirilə bilər. Azərbaycanın məqsədi dövlətlərarası sülh müqaviləsinin ictimai təməlini gücləndirmək və uzunmüddətli sabitliyi təmin edən reallığa əsaslanan əməkdaşlıq mühiti formalaşdırmaqdır”.

***Səbinə Hüseynli***

# Bakıdan Ermənistana SÜLH və ÇÖRƏK MESAJI...



***Mətləb Salahov: “Azərbaycan Prezidentinin son qərarı iki ölkə arasında inteqrasiya prosesini sürətləndirməklə yanaşı, rəsmi Bakının real sülhə hazır olduğunu göstərdi”***

“Azərbaycan artıq növbəti dəfə real sülhə və Vaşinqtonda imzalanan sənədlərin həyata keçirilməsi üçün əməli addımlar atmağa hazır olduğunu bütün dünyaya nümayiş etdirdi. Prezident İlham Əliyevin Azərbaycanın öz ərazisindən Ermənistana malların tranzitinə qoyulan məhdudiyyətləri aradan qaldırmaq barədəki qərarı bütün erməni cəmiyyətinə mühüm sülh mesajıdır. Azərbaycan dövlət başçısının olduqca tarixi sayılacaq bu qərarı bölgənin müharibə ritorikasından qurtulması və sülh üçün böyük imkanlar yaradır.

Artıq ən qatı anti-Azərbaycan qüvvələrinin, xüsusilə İrəvandakı keçmiş müharibə cinayətkarı olan revanşistlərin sülh məsələsində və Ermənistanla inteqrasiya barədə azacıq irad və bəhanələri belə qalmadı. Bu, çox mühüm məsələdir.”

Bu barədə SİA-ya şərhində jurnalist-ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, Ermənistanın bölgədəki inteqrasiya prosesinə qoşulması, loqistika və digər iqtisadi layihələrə daxil edilməsi üçün Azərbaycanın atdığı son addımın böyük önəmi var: “Bu qərarla Azərbaycan Ermənistana yük tranziti ilə bağlı işğaldan bəri mövcud olan bütün məhdudiyyətləri aradan qaldırmış oldu. Artıq İrəvanda küçə süpürənindən akademikinə qədər aydın şəkildə anladılar ki, Bakı ilə inteqrasiya Ermənistanın tək çıxış yoludur. Diqqət edin: Artıq heç bir maneə olmadan Qazaxıstan taxılı Aktau-Bakı marşrutu ilə Ermənistana çatdırılacaq. Bu Azərbaycanın Ermənistana sözün əsl mənasında “çörək hədiyyəsidir”. İndi top rəsmi İrəvandadır. Ararat Mirzoyanın qərəzli bəyanatlarından fərqli olaraq Nikol Paşinyan da real sülh üçün populist bəyanatlar əvəzinə əməli işə keçməlidir. Bu nə vaxt olacaq? – onu da zamana buraxaq...”

***Ayşən Vəli***

# Krediti vaxtında qaytara bilməyən şəxsləri hansı cəzalar gözləyir?

*VƏKİL AÇIQLADI*




Kredit ödənişində gecikmə və ya ödənişin tam mümkün olmaması hər kəs üçün stressli və narahatlıq doğuran vəziyyətdir. Bu halda borclu şəxslər qarşısında hüquqi və maliyyə baxımından bir sıra nəticələr yaranır. Azərbaycanda krediti vaxtında qaytara bilməyən şəxsləri hansı cəzaların gözləyir? Məsələ ilə bağlı vəkil Şəms Mirzəyeva SİA-ya açıqlamasında bildirib ki, kredit öhdəliyinin yerinə yetirilməməsi həm müqavilə, həm də qanunvericilik baxımından bir sıra hüquqi nəticələr doğurur: "Belə ki, bildiyiniz kimi, kredit də bir hüquqi münasibətdir və müqavilə vasitəsilə rəsmiləşdirilir. Vətəndaş ilkincə müqavilə bağlayarkən bank və ya kredit təşkilatı ilə təbii ki, müqavilə əsasında bu məsələ tənzimlənir. Müqaviləni yaxşı-yaxşı oxumalıdır və bilməlidir ki, bu müqavilə onun birbaşa öhdəliyidir və düşünülmüş şəkildə imzalanmalıdır. Şərtlərlə tanış olmalı və yalnız razı qaldığı halda imzalamalıdır. Bu məcburi bir məsələ deyil. Lakin krediti götürərkən çox vaxt insanların pula ehtiyacı olduğundan müqavilələri düşünülmədən imzalayırlar.

Sonradan mübahisə yaranarsa, müqavilənin və qanunvericiliyin hüquqi nəticələri ortaya çıxır. Əgər vətəndaş öhdəliyini – yəni kredit borcunu – yerinə yetirmirsə, ona faizlər və gecikmə cərimələri hesablanır. Bu da ümumi borc yükünü artırır. Bundan əlavə, vaxtında ödəniş edilmədikdə bank müqaviləni ləğvini və borcun tam şəkildə ödənilməsini tələb edə bilər. Əvvəlcə danışıqlar yolu ilə razılaşmağa çalışılsa da, nəticə olmasa, məsələ məhkəməyə verilir. Məhkəmə qərarından sonra isə ödəniş məcburi hala gəlir və borcun ödənilməsi üçün vətəndaşın maaşına, əmlakına və ya bank hesabına yönəldilə bilər. Bundan əlavə, vətəndaşın adı Mərkəzi Bankın kredit reyestrində qeyd olunur və kredit tarixçəsi pozulur. Gələcəkdə istər ipoteka, istər istehlak krediti, istər avtomobil və ya digər əmlakla bağlı kreditlər almaq çətinləşir və ya məhdud məbləğlərlə məhdudlaşır. Buna görə də kredit götürərkən vətəndaşlar nəticələri əvvəlcədən bilməli və məsuliyyətli qərar verməlidirlər”.

***Arzu Qurbanlı***



Elçin Bayramlı

# Mal əti ilə bağlı problem nədən qaynaqlanır?

Son günlər Azərbaycanda dabaq xəstəliyi və ətin təhlükəsizliyi ilə bağlı yayılan məlumatlar cəmiyyətdə narahatlıq yaradıb. Bununla paralel olaraq mal ətinin qiyməti kəskin bahalaşıb və 21 manata çatıb. Bu isə bir çoxlarında şübhələr yaradıb. Bəs yaranmış vəziyyət nə iklə bağlıdır? Müxtəlif regionlarda yaşayan, tanış heyvandarlardan araşdırmağa çalışdım. Həqiqətən də hazırda bəzi rayonlarda iribuynuzlu mal-qarada bu xəstəlik var. Əvvəllər də bəzən mal-qarada dabaq xəstəliyi olub olub, bu ümumiyyətlə həmişə olub. Müəyyən bir həcmdə təbii bir haldır. Amma son dövrlərdə onun sayı artıb. Ölkəmizdə hərdən yayılan belə xəstəliklər təbiidir və normaldır. Lakin qlobal miqyasda bu proses heç də təbii deyil. Son illərdə, dünya ölkələrində müxtəlif xəstəlik və viruslardan milyonla mal-qara tələf olub.

Proses müxtəlif ölkələrdə eyni gedir. Sanki hansısa qüvvə xüsusi olaraq mal-qarada xəstəliklərin yayılmasına çalışır. Bizə də xaricdən diri heyvanlar və müxtəlif yemlər gətirilir. Onların tərkibində nə olduğunu biz bilmirik. Bu məsələ ölkənin özünün daxilində təşkil olunan bir iş deyil. Xəstəliyin gəlmə mənbəyi xarici ölkələrdəndir. Dünya artıq qloballaşıb. Ticarət və iqtisadiyyat artıb. Heyvanlar və yemlər də müəyyən mərkəzlər tərəfindən təmin olunur. İstənilən ölkəyə bunları göndərərək, orada bu xəstəlikləri yaymaq mümkündür.

Heyvanlarda olan bəzi xəstəliklər insanlara ciddi təsir edir. Bəzi viruslar var ki, bunlar hətta qaynama temperaturunda da ölmürlər. Ona görə də, ət məsələsində diqqətli olmaq vacibdir.

Son illərdə analitiklər bildirirdilər ki, dünyada iri və xırdabuynuzlu heyvanlara qarşı bir kampaniya başladılacaq. Çünki süni ət texnologiyası artıq hazırdır. Bunun maya dəyərini də 15 dollara qədər aşağı salıblar. Getdikcə də qiyməti ucuzlaşacaq, süni əti bazara oturtmaq, insanları proqramlaşdırılmış, süni hüceyrələrdən formalaşmış süni ətlə qidalandırmaq üçün təbii ət bazardan çıxmalıdır. GMO soyadan istifadə olunan süni ət, hüceyrənin laborator şəraitdə hormonal dərmanlarla çoxaldılıb şişirdilən vasitələrlə təşkil olunur. Dadı da təbii ətdən heç seçilmir.

Şübhə yoxdur ki, yaxın illərdə təbii ətin qiyməti heç bir iqtisadi əsası olmadan davamlı bahalaşmaya məruz qalacaq. Müxtəlif formalarda heyvanlar arasında xəstəliklər yayılacaq. İnsanlar qorxudulacaq. Bu həm də ət monopoliyasını formalaşdırır. İnsanlar sadə qəssablardan ət almağa çəkinəcəklər. Bəziləri deyir ki, heyvanların xüsusi yoxlamalardan keçdiyi kəsim mərkəzlərindən və market şəbəkələrindən olan ət alınmalıdır. Burada, əslində alıcı bilmir ki, heyvanın mənşəyi nədir. Bu bizim cəmiyyətin psixologiyasına xarakterik deyil. Biz həmişə göz qabağında olan, sağlam şəkildə kəsilən heyvanların ətini almağa üstünlük vermişik. Amma müəyyən məhdudiyyət və məcburiyyətlər olanda, insanlar məcbur olacaq ki, qəssabdan ət almaqdan çəkinsinlər. Burda problem olmamalıdır, sadəcə qəssablarda kəsilən heyvanları əvvəlcədən müayinə etmək kifayətdir.

Bəzi proqnozlara görə, yaxın vaxtda heyvanlar arasında qlobal səviyyədə çox təhlükəli bir virusun yayılması təşkil olunacaq. Bu, əsasən iribuynuzlu heyvanlar arasında baş verəcək. Çünki qlobalistlər deyirlər ki, guya inəklər metan qazı buraxır və atmosferdə problem yaradır, havanı zəhərləyirlər. Halbuki bu tamamilə uydurmadır. Qlobalistlərin nəhəng kimya zavodları inəklərin buraxdığından milyon dəfə artıq metan qazı, karbon dioksid və s. buraxır. O zavodları bağlasınlar.

Artıq bir sıra ölkələrdə, o cümlədən qonşu Türkiyədə süni ətin istifadəsinə və istehsalına başlanılıb. İlk vaxtlar bu müxtəlif ət məhsulları formasında satışa buraxılır. Kolbasalar, sosiskalar, farş formalarında olur. Əvvəlcə kafe və restoranlara veriləcək. İnsanlar o ətin mənşəyindən xəbərsiz olacaq. Daha sonra müəyyən məhdudiyyət və qadağalar, heyvanların kütləvi qırılması ilə dünya səviyyəsində təbii ətin istifadəsini demək olar ki, minimuma endirəcəklər. Paralel olaraq süni ətin kiloqramı 5 dollar səviyyəsində endiriləcək. Hətta bazarda təbii ət olsa belə, qiyməti o qədər qalxacaq ki, (məsələn 50-100 manat) sadə insanlar onu ala bilməyəcək. İmkanlı şəxslər isə istəyir kilosu 100-200 manat olsun, alıb yeyəcək. Sadə insanlar isə məcburən süni ətə keçməli olacaq.

Qlobalistlər heyvanlara edəcəkləri soyqırımı heç də gizlətmirlər, məqalələrdə, canlı efirlərdə bəyan edirlər. Bəşəriyyəti təbii fitrətindən çıxarıb zombiləşdirmək məqsədi güdürlərbunun üçün çoxsaylı sahələrdə terror aparılır. Bu qlobal terror kampaniyasına trilyonlarla pul ayrılır.

Bizim ölkədə mümkün qədər özünüqoruma mexanizmi olmalıdır. Dövlət bu məsələlərə ciddi yanaşmalıdır. Özümüzün taxıl, yem, ot və s. kimi imkanlarımız böyükdür. Xaricdən yemlər, naməlum tərkibli maddələr almamalıyıq. Hansı ki, onlar heyvanları tezkökəldən zərərli dərmanlardır. Heyvanların da xarici ölkələrdən gətirilməsini azaltmalı və özümüzdə çoxaltmalıyıq. Özümüzü qorumaq üçün coğrafi imkanlarımız var. Qarabağ zonası çox nəhəng potensiala malikdir. Azərbaycan tamamilə öz təlabatını ödəyə bilər.

***Kuzey Kıbrıs Türk Cumhuriyeti (KKTC) 19 oktyabr 2025 tarixində keçirilmiş prezident seçkiləri ilə siyasi müstəvidə diqqətəlayiq dönüş nöqtəsinə gəlib. Seçkilər nəticəsində əsas müxalifət lideri Tufan Erhürman böyük fərqlə qalib gəlib və bu, adadakı bölücülük müstəvisində, yəni Türk və Rum tərəfləri arasındakı münasibətlər, Türkiyə ilə əlaqələr və beynəlxalq aləmdə qəbul kontekstində, yeni suallar və imkanlar açır.***



# Müstəqillik, yoxsa federallaşma?

*Şimali Kipr Türk Cümhuriyyətində siyasət dəyişdi, istiqamət necə?*

Qeyd edək ki, seçkilərdə 218 313 qeydiyyatdan keçmiş seçici iştirak edib. İştirak faizi 64.87% olaraq qeyd edilib. Tufan Erhürman, Cumhuriyetçi Türk Partiyasının (CTP) lideri kimi yarışa girərək 62.76% səs toplayıb. İndiki prezident olaraq yarışan Ersin Tatar isə 35.81% səviyyəsində qalıb. Digər beş namizədin hər biri 1%-dən az səs alıb. Qələbə Erhürman üçün bir turda, mütləq səs çoxluğu (50%+) ilə təmin edilib.



## Tərəflərin mövqeləri

Cumhuriyetçi Türk Partisinin (CTP) sədri Tufan Erhürman qalibiyyətdən sonra bəyan edib ki, xarici siyasətin Türkiyə ilə yaxın məsləhətləşmə ilə yürüdüləcəyindən kimdənsə şübhə olmasın. "KKTC də Türkiyə ilə istişarə edilmədən Kıbrısda bir xarici siyasətin müəyyənləşdirilməsində bu günə qədər heç bir fikir ayrılığı yaşamayıb. Mənim dönəmimdə də əsla fərqli yanaşma olmayacaq", – deyə vurğulayıb. Bu, qələbə fonunda müstəqillik mülahizələrindən uzaq, Türkiyə ilə əlaqələrin davamlılığına vurğu edən bir mövqe kimi qəbul edilir.Ersin Tatar hakimiyyət müddətində adada "iki dövlətli" çözüm modelini, Türkiyə ilə daha sıx əlaqələri prioritetləşdirirdi. Bu seçkidə bu mövqenin seçici arasında kifayət qədər dəstəklənmədiyi müşahidə olunur. Erhürmanın qalibiyyəti bu baxımdan zamanlama və məzmun baxımından "dəyişiklik istəyi" kimi şərh olunur.

## Reallıqlar və siyasi çərçivə

KKTC yalnız Türkiyə tərəfindən tanınır və adanın digər hissəsi olan Güney Kıbrıs Rum Yönetimi (GKRY) ilə münasibətlər uzun müddətdir gərgindir. 1974-cü il hadisələri və adanın bölünməsi konteksti hələ də çözülməyib: adanın şimal və cənub hissələri arasında diplomatik status, tərəflərin mövqeləri fərqlidir. Erhürmanın qələbəsi "təcridin qəbulu" və ya "daha geniş dünyaya inteqrasiya" istiqamətində siqnal kimi qəbul edilir — o, "federal Kıbrıs" modelini bəzən dəstəkləyən mövqedədir.Lakin Türkiyə ilə əlaqələrdə dəyişiklik olmayacağını vurğulaması, şimal tərəfdə Türkiyənin təsirinin hələ də güclü olduğuna işarədir. Adada təklifi yenidən dirçəldiriləcək danışıqlar baxımından bu kurs dəyişimi əhəmiyyətlidir. 2017-ci ildən bəri danışıqlar demək olar dayanmış vəziyyətdədir.Türkiyə Prezidenti Rəcəp Tayyip Ərdoğan qalib Erhürmanı təbrik edib və "KKTC-nin demokratik olgunluğunu" qeyd edib. Türkiyə Xarici İşlər Nazirliyi seçkilərin huzurlu və demokratik şəkildə keçirildiyini bildirərək, "Ana vətən və zəmanətçi Türkiyə"nin KKTC nın inkişafı üçün dəstəkləməyə davam edəcəyini açıqlayıb. Buna baxmayaraq, Devlet Bahçeli (Milliyətçi Hərəkat Partiyasının lideri) seçkiləri "çıxış səviyyəsi çox aşağıdır, Kıbrıs Türklüyü özünü bu şəkildə təmsil edə bilməyəcək" sözləri ilə tənqid edib.Adanın yunan tərəfinin prezidenti Nikos Xristodoulides Erhürmanın qələbəsini diqqətlə izləyib: "Danışıqlara hazırıq", deyə bildirib. Beynəlxalq mediada bu seçki "adada federal çözümə yol açma şansı" kimi qiymətləndirilir.

Bu seçkilər KKTC siyasətində yalnız lider dəyişimi kimi qəbul edilmir, həm də istiqamət baxımından dönüş nöqtəsi elan edilir. Erhürmanın qalibiyyəti bəzi məqamlara aydınlıq gətirir. Türk və Rum tərəfləri arasında müzakirə mövzuları, xüsusilə "federal Kıbrıs" modeli çərçivəsində yenidən canlana bilər. Türkiyə ilə əlaqələrdə dəyişiklik gözlənilməsə də, seçicilər arasında Türkiyəyə olan münasibətdə "özünütəsdiq" və "yerli mənsubiyyət" hissləri artıb.Lakin reallıq budur ki, "status-kvo" dəyişmədən adada danışıqların real nəticələr verməsi çətin olacaq, suverenlik, sülhə zamin olan güclər, beynəlxalq hüquq və tərəflərin mövqeləri hələ də kəskin şəkildə fərqlidir. Türkiyənin daxili siyasəti və beynəlxalq müstəvidə Kıbrıs strategiyası bu yenilənmiş liderlik kontekstində yenidən nəzərdən keçirilə bilər.

## Tufan Erhürmanın siyasi xətti və vədləri

KKTC iqtisadiyyatının Türkiyədən asılılığı azaldılmadan uzunmüddətli sabitlik mümkün deyil. Erhürman "öz resurslarımızla ayaqda qalmaq" tezisini irəli sürüb. O, "Türkiyə ilə məsləhətləşmədən xarici siyasət olmaz" deyərək, Ankaraya qarşı sərt müstəqil xəttdən qaçır, lakin eyni zamanda beynəlxalq tanınma məsələsində daha fəal diplomatik təşəbbüslər vəd edir. Erhürman, BMT-nin rəhbərliyi altında yenidən danışıqlara başlanmasının tərəfdarıdır. Bu, 2020-2025 dövründə Tatarın müdafiə etdiyi "iki dövlətli həll" siyasətindən fərqli istiqamətdir.

## Ersin Tatarın məğlubiyyəti və siyasi mesaj

Ersin Tatar 2020-ci ildən etibarən KKTC prezidenti olaraq Türkiyə ilə tam uyğunlaşmış, "iki suveren dövlət" prinsipini müdafiə etmişdi. Onun məğlubiyyəti bir sıra amillərlə izah edilir. Gənc seçicilərin "daha açıq dünya ilə əlaqələr" istəyi, iqtisadi çətinliklər və artan bahalıq, Ankara ilə münasibətlərdə asılılıq hissi və yerli idarəetmədə şəffaflıq problemi. Bu nəticə həm də Türkiyə-KKTC əlaqələrində balansın yenidən formalaşacağına dair siqnal kimi qəbul olunur.Bununla belə, Türkiyədə bəzi milliyyətçi çevrələr nəticəni tənqid ediblər. MHP lideri Devlet Bahçeli seçici iştirakının az olmasını "Kıbrıs Türklüyünün təmsil gücünü zəiflədən faktor" adlandırıb. Bu, Türkiyədə də Kıbrıs məsələsinə baxışdakı daxili fikir ayrılığını əks etdirir.

## Yunanıstan və...

Yunanıstan və Cənubi Kipr rəhbərliyi Erhürmanın seçilməsini "sülh danışıqları üçün fürsət" kimi qarşılayıb. AB və BMT rəsmiləri də nəticəni müsbət dəyərləndirərək, "iki icma arasında dialoqun bərpası"na dəstək ifadə ediblər. Beynəlxalq mediada isə bu seçki "Kıbrısda status-kvonu yumşaltmaq üçün tarixi fürsət" kimi qiymətləndirilib. Reuters, The Guardian və AP News kimi nüfuzlu agentliklər Erhürmanı "pragmatik və Avropa yönümlü lider" adlandırıblar. Erhürmanın seçilməsi Kıbrıs problemini dərhal həll etməsə də, yeni diplomatik dinamika yaradır. Bu dinamikanı müəyyən edən bir sıra mühüm əsas amillər var.

Türkiyə ilə əlaqələrin balanslaşdırılması: KKTC üçün Türkiyə hərbi və iqtisadi təminatçıdır. Erhürman bu reallığı qəbul etsə də, öz daxili legitimliyini gücləndirmək istəyir.

Beynəlxalq tanınma perspektivi: KKTC-nin yalnız Türkiyə tərəfindən tanınması hələ də əsas siyasi maneədir. Yeni rəhbərlik bu izolyasiyanı yumşaltmaq üçün beynəlxalq platformalarda daha aktiv iştirak planlaşdırır.

Rum tərəfi ilə mümkün dialoq: BMT himayəsində danışıqların yenidən başlanması ehtimalı artır. Erhürmanın federal həllə meylli olması Cənubi tərəfin də marağını artırıb.

İqtisadi və sosial sabitlik: Əhalinin böyük hissəsi iqtisadi problemlərin siyasi müzakirələrdən daha prioritet olduğunu düşünür. Buna görə yeni rəhbərliyin sosial rifah və əmək bazarı sahəsində islahatlara yönəlməsi gözlənilir.

## Yenilik və dəyişiklik istəyi

"Şimali Kipr Türk Cümhuriyyətində (ŞKTC) keçirilən prezident seçkiləri bir daha göstərdi ki, bu kiçik, amma siyasi mədəniyyəti oturuşmuş cəmiyyət demokratik ənənələrə sadiqdir. Seçicilərin yüksək fəallığı və nəticələrin şəffaf şəkildə elan olunması Şimali Kiprin demokratik ab-havasını, insanların siyasi iradəsinin azad və ədalətli şəkildə ifadə olunduğunu təsdiqlədi. Bu, həm daxili sabitliyin, həm də cəmiyyətin siyasi şüurunun səviyyəsinin göstəricisidir". Bu fikirləri mediaya açıqlamasında "Səs" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev deyib.Siyasi şərhçi qeyd edib ki, müxalif Cumhuriyyətçi Türk Partiyasının lideri Tufan Erhürmanın 62,7 faiz səslə inamlı qələbəsi, əslində, Şimali Kipr seçicisinin yenilik və dəyişiklik istəklərinin rəmzinə çevrildi. Xalq səsvermədə yalnız lider seçmədi, həm də siyasi kursun yenilənməsinə, dialoqa və gələcəyə yönəlik yeni baxışa üstünlük Verdi: "Hesab edirəm ki, Erhürmanın seçki kampaniyasında önə çəkdiyi federal həllə açıq yanaşma, Kiprin yunan hissəsi ilə danışıqların bərpası və beynəlxalq hüquqa əsaslanan birgə dövlət modeli fikirləri, 50 ildən artıq davam edən status-kvonu sarsıdan yeni diplomatik istiqamət ola bilər. Onun bu mövqeyi, xüsusilə, gənc nəsil arasında sülhə, sabitliyə və iqtisadi inteqrasiyaya inamı gücləndirir. Bununla yanaşı, Şimali Kipr cəmiyyəti ənənəvi dəyərlərinə və milli kimliyinə dərin hörmətlə yanaşır. Bu səbəbdən Erhürmanın qarşısında duran əsas vəzifə dəyişiklik istəyini milli maraqlarla və Türkiyə ilə strateji münasibətlərlə ziddiyyətə salmadan həyata keçirməkdir. Ankara ilə əməkdaşlıq, Kipr türklərinin təhlükəsizlik və suverenlik məsələsində əsas dayağı olaraq qalır. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Erhürmana verdiyi dəstək mesajı da məhz bu strateji xəttin qorunacağına işarədir.Digər tərəfdən, Yunan Kiprinin lideri Nikos Xristodulidisin təbriki və sülh danışıqlarına sadiqliyini bildirməsi diplomatik ritorikanın yumşalması baxımından əhəmiyyətlidir. Bu, illərdir donmuş olan masaya yeni ümid işığı sala bilər. Bir fikri də əlavə edim ki, Tufan Erhürmanın qələbəsi həm demokratik dəyərlərin təntənəsi, həm də Şimali Kipr cəmiyyətinin gələcəyə baxışında yeni səhifə açılması deməkdir.

Bu seçki bir daha göstərdi ki, Kipr türkləri sülh, inkişaf və beynəlxalq ədalətə sadiq xalqdır. Amma bu yolda milli kimlik və suverenlik dəyərlərini heç bir güzəştə getmədən qorumağa hazırdır, "-deyə baş redaktor əlavə edib.2025-ci il prezident seçkiləri Kuzey Kıbrıs üçün sadəcə lider dəyişikliyi deyil, həm də siyasi mədəniyyətin yenilənməsi prosesidir. Tufan Erhürmanın qələbəsi Kıbrısda yeni dialoq ümidlərini artırdı, Türkiyə-KKTC münasibətlərində daha balanslı dövrün başlanğıcını xəbər verdi, gənc nəsil arasında "öz kimliyini qoruyaraq dünya ilə inteqrasiya" arzusunu gücləndirdi. Lakin real həllin yalnız daxili siyasi istəklə deyil, həm də beynəlxalq iradə və regional sabitliklə mümkün olacağı aydındır. KKTC-nin qarşısında duran əsas sual budur: Yeni prezident "status-kvo"nu dəyişə biləcək, yoxsa dəyişiklik sadəcə ümid səviyyəsində qalacaq?

**V.VƏLİYEV**

# “Kəssə hər kim tökülən qan izini"



Gözəlliyi, Tanrını özünə ümid, pənah yeri seçən, bütün gözəlliklərdən zövq alaraq yaradan fəlsəfi düşüncələr şairin ucaltdığı səsi həqiqət axtarışında olan bir mütəfəkkirin səsi idi. Dünyanı gözəlliyə qərq etmək, müharibələrə son qoymaq, iblisləri qəlblərdən çıxarmaq kimi bir amal uğurunda yazıb-yaradan şair zaman ilə üz-üzə dayanaraq həqiqi gözəllik axtarışında idi. Dünyanı, bəşəriyyəti xilas edəcək məfhumun dəyərini fəlsəfi dünyasında özünəməxsus bir tərzdə nəzmə çəkir. Filosof şair, böyük dramaturq Hüseyn Cavid dünyasından ədəbi mühitə hopan misralar onun böyük dünyanın hakim olduğu düşüncələrin parlaq nümunəsi kimi poeziyamıza yol açmışdır. Zamanın müasiri olan Hüseyn Cavid sonralar elə bütün nəsillərin müasirinə çevrildi, klassik sənətkar kimi Azərbaycan ədəbiyyatına, fəlsəfi fikir dünyamıza möhrünü vurdu.

Ürək dolubdu nədən, sanki qan piyaləsidir,
Tapıbdır əksini qəlbimdə bəlkə hali-vətən?
Zəmanə ötsə də möhnətli, qanlı qəlbimdən,
Əminəm, heç də silinməz bu ibtizali-vətən.

- deyən şairin əzəmətli səsi, dünyası vətən kimi böyük və müqəddəs bir məfhumun qəlbində əksini tapdığını ifadə edir.

### VƏTƏPƏRVƏR RUHLU ŞAİR

Azərbaycan ədəbiyyatı tarixində romantizm ədəbi cərəyanın ən qüdrətli sənətkarlarından biri olan Hüseyn Cavid vətənin taleyi ilə qəlbinin həmahəngliyinini nəzmə çəkdiyi misralarda şair vətəpərvər ruhunu ortaya qoyur. Hüseyn Cavid XX əsrdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişaf etməsində misilsiz xidmətlər göstərmişdir. Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biridir. ”Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır. Hüseyn Cavidin bütün yaradıcılığı, bütün fəaliyyəti Azərbaycan xalqının mədəniyyətini yüksəklərə qaldırmaqdan, xalqımızı azad, müstəqil xalq etməkdən ibarət olubdur. Onun bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çağırıbdır. O, həmişə öz iradəsi ilə yaşamış, öz iradəsinə, millətinə sadiq olmuşdur, millətini, xalqını həddindən artıq sevmiş və millətinə həddindən artıq xidmət edən bir insan olmuşdur”. Bu fikirləri Ümummilli Lider Heydər Əliyev Azərbaycan ədəbiyyatı tarixində xüsusi mövqeyi olan qüdrətli söz ustalarından biri olan Hüseyn Cavid haqqında bildirmişdir.

Fəlsəfi müdrikliyin və bədii kamilliyin ahəngdar vəhdətini dolğun təcəssüm etdirən Hüseyn Cavid yaradıcılığı ilə Azərbaycan ədəbiyyatı tarixinə işıqlı səhifələr yazıb. O, bütün ədəbi fəaliyyəti boyu həqiqəti, insanpərvərliyi və gözəlliyi tərənnüm edib. Şərq poetik fikri zəminində yüksələn və dünya romantizm ənənələrindən uğurla bəhrələnən filosof-şair Azərbaycan poeziyasında fəlsəfi lirikanın dəyərli nümunələrini meydana gətirib. Azərbaycan xalqının XX əsrdə yetirdiyi ən böyük şəxsiyyətlərdən olan filosof-şair və istedadlı dramaturq Hüseyn Cavid ictimai fikir tarixində böyük rol oynamışdır. Hələ sağlığında öz orijinal sənət yolu ilə milli ədəbi-ictimai fikrin diqqətini yaradıcılığına cəlb etmiş Hüseyn Cavid irsi günahsız yerə repressiya olunduqdan sonra, bir müddət yasaq edilsə də, əsl vətənpərvər ziyalıların xatirindən bir an da çıxmamış, yeri gəldikcə, şifahi şəkildə olsa da, təbliğ edilmişdir. Bütün böyük klassiklər kimi, Hüseyn Cavid də zamanın sınağından alnıaçıq çıxaraq, layiq olduğu bəraəti almışdır.

### MİLLİ RUH VƏ AZƏRBAYCANÇILIQ MƏFKURƏSİ

Xalqımızın bir çox klassik sənətkarı kimi, Hüseyn Cavid irsinin və sənətkar şəxsiyyətinin əsl qiymətini sözün-sənətin böyük bilicisi və hamisi Azərbaycan xalqının böyük Oğlu, Ümummilli Lider Heydər Əliyev vermiş, onun istər cismən, istərsə də mənən vətəninə və xalqına qaytarılmasında müstəsna rol oynamışdır. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Hüseyn Cavidin nəşinin hələ 1982-ci ildə Uzaq Sibirdən vətəninə gətirilməsi və Naxçıvanda məzarı üzərində möhtəşəm məqbərənin ucaldılması milli ruhun dirçəlişi və azərbaycançılıq məfkurəsinin təntənəsi baxımından, müstəsna əhəmiyyətə malik misilsiz bir hadisədir. Ulu Öndər Heydər Əliyev deyirdi: ”Tarix hər şeyi öz yerinə qoydu. Hüseyn Cavidin cənazəsi də Sibirdən öz vətəninə gətirildi, onun adı da yüksəldi”.

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Hüseyn Cavidin cənazəsinin qalıqlarının Azərbaycana - şairin doğma yurdu Naxçıvana gətirilməsi Sovet məkanında yaşadığımız illərdə, həqiqətən də, böyük maraq doğurmuşdu. Milli mədəniyyətimizin hərtərəfli inkişafına, yüksəlişinə daim təkan verən Ulu Öndər Heydər Əliyev hələ Azərbaycan KP MK-nın Birinci Katibi vəzifəsində çalışarkən, 1981-ci ildə Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında qərar qəbul etmiş, bu qərardan sonra - 1982-ci il oktyabrın 3-də Naxçıvana səfəri zamanı Cavidin cənazəsinin qalıqlarının Uzaq Sibirdən tapılıb gətirilməsinə xeyirdua vermişdir. 1982-ci il oktyabrın 12-də Naxçıvan Vilayət Partiya Komitəsi Hüseyn Cavidin məzarının tapılması, cənazəsinin qalıqlarının Azərbaycana gətirilməsi ilə bağlı tarixi bir qərar qəbul etmiş və bu qərarın icrası rusiyalı həmkarlarının köməyindən istifadə edərək şairin məşəqqətli ömür yolunu tədqiq edərək, Cavid haqqında Uzaq Sibirdə saxlanılan sənədlərin əldə olunmasına nail olan Naxçıvan Vilayət Partiya Komitəsinin katibi Həmid Cəfərova həvalə olunmuşdu. Cavidin cənazəsinin qalıqları onilliklərdən sonra uzaq və buzlu Sibirin əlçatmaz yerlərindən doğma yurdu Naxçıvana gətirildi.



### AZƏRBAYCANDA POETİK TEATRIN BANİSİ

Böyük dramaturqun doğum günündə onun keçdiyi ömür yolunu bir daha vərəqləyirik. Böyük dramaturq Hüseyn Cavid 1882-ci ildə oktyabrın 24-də Naxçıvanda ruhani ailəsində dünyaya göz açıb. İbtidai təhsilini Naxçıvanda molla məktəbində, orta təhsilini isə M.T.Sidqinin ”Məktəbi-tərbiyə” adlı yeni üsullu məktəbində almışdır. 1899-1903-cü illərdə Cənubi Azərbaycanda olmuş, Təbrizin ”Talibiyyə” mədrəsəsində təhsilini davam etdirmişdir. İstanbul Universitetinin ədəbiyyat şöbəsini bitirmiş, Naxçıvanda, sonra isə Gəncə və Tiflisdə, 1915-ci ildən isə Bakıda müəllimlik etmişdir. Hüseyn Cavid klassik Azərbaycan ədəbiyyatının ən yaxşı ənənələrini inkişaf etdirən sənətkarlardandır. O, XX əsr Azərbaycan mütərəqqi romantizminin banilərindən biri olmuşdur. Hüseyn Cavid sənəti janr və forma cəhətdən zəngindir. O, lirik şeirlərin, lirik-epik, epik poemaların, Azərbaycan ədəbiyyatında ilk mənzum faciə və dramların müəllifidir. ”Keçmiş günlər” adlı ilk şeir kitabı 1913-cü ildə çap olunmuşdur.

Hüseyn Cavid daha çox dramaturq kimi tanınmışdır. Onun fəlsəfi və tarixi faciələri, ailə-məişət dramları üslub və yazı ədası forma yeniliyi baxımından, Azərbaycan dramaturgiyasında yeni bir mərhələ yaratdığı kimi, milli teatr mədəniyyətinin inkişafına da qüvvətli təsir göstərmiş, ”Cavid teatrı” kimi səciyyələndirilmişdir. Professor Cəfər Cəfərov yazırdı: ”Şair və teatr özü-özlüyündə bir problemdir ki, səhnə sənətinə yeni keyfiyyət gətirir. Azərbaycanda poetik teatrın banisi Caviddir. ...Cavid yaradıcılığı teatrla üzvi surətdə bağlıdır və Cavidin şübhəsiz, öz teatrı vardır. Cavidi teatrsız, teatrı Cavidsiz düşünmək olmaz”. Dramaturgiyasında dövrün ümumbəşəri, böyük ictimai-siyasi və mədəni əhəmiyyətə malik problemləri əksini tapmışdır.

Azərbaycan ədəbiyyatında ilk mənzum faciə olan ”Şeyx Sənan” (1914) əsərində xalqları bir-birinə qovuşdurmaq üçün ümumbəşəri din ideyasını ortaya atmışdır. Hüseyn Cavid bu dövrdə tədriclə ”haqq verilmir, alınır” ideyasına gəlib çıxmışdır. Yaradıcılığında mühüm yer tutan ”İblis” (1918) mənzum faciəsində dövrün bütün mürtəce qüvvələri - ”insan insana qurddur” fəlsəfəsinin tərəfdarları, ”iyirminci əsrin mədəni vəhşiləri” olan dairələri İblis surətində ümumiləşdirilmiş və işğalçı müharibələrə lənət yağdırılmışdır.

**Əgər sual edələr – Cavidin xəyalı nədir?**
**Deyin həqiqəti, ancaq olub maali-vətən.**

1926-cı ildə müalicə üçün Almaniyaya gedən və 7 ay Berlində yaşayan Hüseyn Cavid oradan ziyalıların mənəvi iztirablarını əks etdirən bir sıra siyasi-lirik və lirik-epik şeirlərlə qayıdır. Ötən əsrin 20-30-cu illərində Hüseyn Cavid bir sıra tarixi dramlar yazmışdır. ”Peyğəmbər” (1922) və ”Topal Teymur” (1925) əsərlərindən sonra yazdığı ”Səyavuş” (1933), ”Xəyyam” (1935) tarixi dramları Hüseyn Cavidin tarixə və tarixi şəxsiyyətlərə baxışında ciddi dönüş oldu.

Yazıçılardan bir belə yazırdı: ”Həyat həqiqəti ilə arzu və xəyal arasındakı ziddiyyət onun dram əsərlərinin hərəkətverici qüvvəsidir. Buna görə də H.Cavid müstəsna hadisə, müstəsna hərəkətlər, müstəsna xarakter, müstəsna fabulalar yaradır. H.Cavid orijinal təbiətə malik bir şair idi. Onun bir misrasını silmək, başqa bir misra ilə əvəz etmək mümkün deyildi, hətta dilinin imlasını dəyişdirmək belə böyük cəsarət tələb edirdi”.

Böyük sənətkarın yaradıcılıq irsinə və şəxsiyyətinə hər zaman diqqət olmuşdur. Ümummilli Lider Heydər Əliyevin ”Hüseyn Cavidin 120 illik yubileyi haqqında” imzaladığı Sərəncamdan bir gün sonra 2002-ci il 24 oktyabrda, yəni Hüseyn Cavidin 120 illik yubileyi günündə şairin Ev Muzeyi açıldı. Bu gün Azərbaycan Prezidenti Cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirir. Azərbaycan Prezidentinin Sərəncamına əsasən, böyük sənətkarın əsərləri latın qrafikasında çap olunub. Hüseyn Cavidin 130 və 135 illik yubileylərinin keçirilməsi haqqında dövlət başçısı sərəncamlar imzalamışdır.

Görülən işlərin davamı olaraq, Cənab Prezident 24 sentyabr 2022-ci il tarixində Hüseyn Cavidin 140 illiyinin qeyd edilməsi ilə bağlı Sərəncam imzaladı. Bu sənəd Cavid yaradıcılığına ayrılan daha bir diqqətdir.

Hüseyn Cavid son dərəcə dərin məzmunlu yaradıcılığı ilə çoxəsrlik Azərbaycan ədəbiyyatı xəzinəsinə tarixi-mədəni dəyərlər bəxş etmiş qüdrətli söz sənətkarıdır. O, Şərqin zəngin fəlsəfi-poetik irsi zəminində yüksələrək və dünya romantizm ənənələrindən uğurla bəhrələnərək, Azərbaycan xalqının ədəbi-bədii fikir salnaməsinə parlaq səhifələr yazmışdır. Mütəfəkkir sənətkarın neçə-neçə oxucu və tamaşaçı nəslinin estetik zövqünü müəyyənləşdirən əsərləri bu gün də öz monumentallığını və yüksək təsir gücünü qorumaqdadır. Böyük dramaturq Hüseyn Cavid ”Şeyx Sənan” faciəsində yaratdığı dramatik münaqişə vasitəsilə insanın həqiqət axtarışında olaraq, onun hisslərinin aliliyini yüksəltmək səyləri ilə ucala biləcəyinin mümkünlüyünü isbat etmişdir. Hüseyn Cavid də, məhz belə ali dəyərlərin axtarışında olaraq, əbədiliyini qazanmışdır. Əgər sual edələr – Cavidin xəyalı nədir?

Deyin həqiqəti, ancaq olub maali-vətən.

***Zümrüd BAYRAMOVA***

# Mərkəzi Asiyada kəsişən maraqlar

## Rusiya və Avropa İttifaqı region uğrunda amansız savaşa başlayıblar



***Mərkəzi Asiyada əsas enerji layihəsi - Kambarata-1 Su Elektrik Stansiyasının tikintisi güclü beynəlxalq dəstək alıb. Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) və Avropa İnvestisiya Bankı (AİB) Brüsseldə memorandum imzalamaqla SES-in maliyyələşməsində iştiraklarını rəsmi şəkildə təmin ediblər. Maliyyə institutları layihəyə 2,4 milyard dollar sərmayə qoymağı öhdələrinə götürüblər.***

Razılaşma Avropanın maliyyə nəhənglərini Qazaxıstan, Qırğızıstan və Özbəkistanın energetika nazirləri ilə bir araya gətirən genişmiqyaslı Qlobal Gateway forumunda əldə olunub. Brüsseldə keçirilən Qlobal Gateway forumu tərəfdaşlığın gücləndirilməsinə və davamlı qlobal infrastrukturun inkişafına həsr olunub. Avropa Komissiyasının sədri Ursula von der Leyen tərəfindən açılan konfrans enerji, nəqliyyat, rəqəmsal gündəm və sənaye rəqabətliliyi kimi kritik mövzulara diqqət yetirib. Mərkəzi Asiyanın hidroenergetika potensialının genişləndirilməsi və nəqliyyat əlaqələrinin inkişafı perspektivlərini əks etdirən flaqman "Qlobal Gateway" təşəbbüsünə xüsusi diqqət yetirilib.

AİB və AYİB kimi beynəlxalq banklar vasitəsilə regionun enerji layihələrinə aydın şəkildə diqqət yetirməklə investisiyaların artırılması bu tədbirin əsas nəticələrindən biri idi və bu tədbirin beynəlxalq tərəfdaşlıq üzrə Avropa komissarı Jozef Sikelanın fəal Mərkəzi Asiya turu ilə əvvəlcədən müəyyənləşdirilmişdir.

Potensial layihələr arasında Qırğızıstanın Narın çayı üzərində yerləşən Kambarata-1 Su Elektrik Stansiyası (SES) Aİ maliyyə institutlarından ən əhəmiyyətli dəstəyi alıb. Stansiyanın layihə gücü 1860 MVt, anbarı 5,4 milyard kubmetr, bəndin hündürlüyü 256 metrə yüksələcək və ildə orta hesabla 5,6 milyard kilovatsaat elektrik enerjisi istehsal olunacaq. Onun tikintisinin təxminən 10 il çəkəcəyi planlaşdırılır. Ümumi dəyəri 5-6 milyard dollar təşkil edən layihə Qırğızıstanın (müştərək müəssisədə payı 34%), Qazaxıstanın (33%) və Özbəkistanın (33%) səylərini birləşdirərək regional layihəyə çevrilib. Bu əməkdaşlığın əsasları 2023-cü ilin yanvarında yol xəritəsi, ardınca isə 2024-cü ildə hazırlıq və istismara dair üçtərəfli sazişlə qoyulub. Dünya Bankı, Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və digər beynəlxalq tərəfdaşlar daxil olmaqla, maliyyələşdirməni əlaqələndirmək üçün donor komitəsi yaradılıb. Birinci su elektrik aqreqatının işlərin əsas mərhələsinin başlanmasından dörd il sonra istismara verilməsi planlaşdırılır.

Qeyd etmək vacibdir ki, geniş beynəlxalq iştiraka baxmayaraq, layihə başa çatdıqdan sonra zavodun bütün aktivləri və səhmləri Bişkekin mülkiyyətinə keçəcək. İştirakçıların səhmləri bu strateji əhəmiyyətli obyekt üzərində suverenliyə təminat verən, ötürülə və ya satıla bilməz. Nəticədə, Qırğızıstanın



energetika naziri Taalaibek Ibrayevin verdiyi məlumata görə, Kambarata-1 SES layihəsi ilə bağlı iki anlaşma memorandumu imzalanıb: biri AYB-nin baş direktoru Endryu Makdauell ilə 500 milyon dollara, digəri isə AYİB prezidenti Odil Renaud-Bassonun iştirakı ilə regional direktoru Hüseyn Özhan ilə əlavə 50 milyon dollara. Qırğızıstan, Özbəkistan və Qazaxıstan üçün Avropa maliyyələşdirməsinin ümumi həcmi 2,4 milyard dollara çatacaq.

Jozef Sikela yeni sazişləri alqışlayıb: "Sidroenergetikaya ağıllı investisiyalar elektrik enerjisinə etibarlı çıxışı təmin edə, yerli icmalar üçün gəlir əldə edə, dayanıqlı kənd təsərrüfatını təşviq edə və insan sağlamlığını və ətraf mühiti qoruya bilər. Biz Mərkəzi Asiyada əsas enerji istehsalı obyekti olan Kambarata-1 SES-in gələcəkdə həyata keçirilməsini dəstəkləməkdən qürur duyuruq. Bizim yeni investisiyamız Aİ və region ölkələri arasında strateji tərəfdaşlığı gücləndirir".

EİB-nin Mərkəzi Asiya üzrə vitse-prezidenti Kiriakos Kakouris isə qeyd edib ki, Avropa Komissiyasının təminatları sayəsində AİB iqlim bankı olaraq Mərkəzi Asiyada regional enerji əməkdaşlığını gücləndirən infrastrukturu dəstəkləyir: "Biz Kambarata-1 SES layihəsinin potensialını bərpa olunan enerji ticarətinin genişləndirilməsində, iqtisadi inkişafın stimullaşdırılmasında və enerji təhlükəsizliyinin gücləndirilməsində əsas element kimi görürük".

Eyni zamanda Qırğızıstanda Böyük Britaniyanın "United Concrete Canvas" şirkəti tərəfindən dünyada ikinci zavodun tikintisinə başlanıldığı açıqlanıb. Bu zavod Kambarata-1 SES bəndinin tikintisində istifadə oluna bilən innovativ beton kətan istehsal edəcək. Təməl daşının qoyulma mərasimində iştirak edən Böyük Britaniya səfiri Nikolas Bouler vurğulamışdır ki, "bu layihə Böyük Britaniya və Qırğızıstan dostluğunun parlaq nümunəsidir və Mərkəzi Asiyanın ürəyinə ən müasir texnologiyalar gətirir". Suvarma kanallarında səmərəli şəkildə istifadə olunan bu innovativ material su itkisini əhəmiyyətli dərəcədə azaldır və 100 ilə qədər davam edir ki, bu da quraq rayonlar üçün çox vacibdir. 2027-ci ilin əvvəlinə hazır olması gözlənilən zavod respublikanın enerji ehtiyacını özü ödəməyə və Mərkəzi Asiyaya məhsul ixrac etməyə imkan verəcək.

Qazaxıstanın naziri Erlan Akkenjenov Jozef Sikela və Genişlənmə və Qonşuluq Siyasəti üzrə komissarı Marta Kos ilə danışıqlar zamanı Qazaxıstan üçün yaşıl enerjinin inkişafının vacibliyini vurğulayıb. O, Qazaxıstanın 2060-cı ilə qədər karbon neytrallığına nail olmaq kimi strateji hədəfini təsdiqləyərək, ölkənin yaşıl keçidə praqmatik və balanslı yanaşma nümayiş etdirdiyini vurğulayıb.

Forumun sessiyasında həmçinin Tacikistanda Roqun Su Elektrik Stansiyasının layihəsi müzakirə olunub, rəsmilərin fikrincə, bu, regionun enerji təhlükəsizliyi, su ehtiyatlarından səmərəli istifadə və kənd təsərrüfatının davamlı inkişafı üçün həlledici əhəmiyyətə malikdir.

### Rusiya da hərəkətə keçir

Rusiya da Mərkəzi Asiyada iri enerji layihələrində investisiya və iştirakını artırmaq niyyətindədir. Bunu Rusiya prezidenti Vladimir Putin Düşənbədə keçirilən ikinci Mərkəzi Asiya-Rusiya Sammiti zamanı deyib. O, həmçinin vurğuladı ki, bu, "müasir Rusiya texnologiyaları"na və regionun enerji sisteminə bərpa olunan enerji mənbələrinin tətbiqinə aiddir.

Mərkəzi Asiyanın enerji ehtiyaclarının miqyası və resurs potensialı regionun həm Rusiya, həm də Avropa İttifaqı ilə səmərəli əməkdaşlıq üçün geniş imkanlara malik olduğunu göstərir. Ekspertlərin fikrincə, onların enerji sektorunun müxtəlif aspektlərinə yönəlmiş investisiyaları və təcrübələri rəqabət aparmır, lakin bir-birini tamamlaya bilər və regionun hərtərəfli və davamlı inkişafına töhfə verə bilər. Putin Mərkəzi Asiya ölkələrini Rusiyanın sülhsevər olduğuna inandırmağa çalışır. Amma Moskva təsirini itirir, Aİ milyardlarla avro təklif edir, Çin isə güc qazanır. Bu strateji əhəmiyyətli regionda mübarizədə kim qalib gəlir?

Ukraynada genişmiqyaslı müharibə başlayandan bəri Rusiya Mərkəzi Asiyadakı sarsıntılı mövqeyini bərpa etməyə çalışır. Moskva cənub qonşuları üçün vacib tərəfdaş olaraq qaldığını nümayiş etdirməyə çalışır: bu məqsədlə Rusiya prezidenti Vladimir Putin oktyabrın 8-də Düşənbədə Mərkəzi Asiya-Rusiya sammitində Mərkəzi Asiya liderlərini Moskvanın regionda "sülh və sabitlikdə maraqlı" olduğuna inandırmağa çalışıb.










Ekspertlər qeyd edirlər ki, Rusiyanın qonşu dövlətləri hələ də Ukraynaya müdaxilədən sonra onun təsirinə ehtiyatla yanaşırlar.

Avropa İttifaqı və Çin bu il Mərkəzi Asiyada öz forumlarını keçirib. Aİ Mərkəzi Asiyaya 12 milyard avroluq investisiya paketi, Çin isə dəmir yolu və hava əlaqələrinin inkişafına sərmayə qoyacağını açıqlayıb. DW-nin müsahibə verdiyi ekspertlərin fikrincə, region ölkələri əsas oyunçular arasında manevr edərək özlərini daha müstəqil qurumlar kimi təqdim etməyə çalışırlar. Onlar rəqabət sahələrini və Rusiyanın hazırda Orta Asiyada necə qəbul edildiyini izah ediblər.

## Rusiyadan uzaqlaşırlar

Mərkəzi Asiya üzrə müstəqil polşalı analitik Martin Poplawski deyir: ”Son vaxtlara qədər Mərkəzi Asiya dövlətləri siyasi cəhətdən Rusiyadan, iqtisadi cəhətdən Çindən asılı hesab olunurdu. İndi əməkdaşlıq şərtlərini diktə edirlər”. Poplavski qeyd edir ki, Rusiyanın 2022-ci ildə Ukraynaya genişmiqyaslı işğalı region üçün dönüş nöqtəsi oldu, baxmayaraq ki, Mərkəzi Asiya ölkələri Rusiyaya simvolik və faktiki güzəştlər etməyə davam edir. Məsələn, Tacikistan Beynəlxalq Cinayət Məhkəməsinin (ICC) Putin haqqında həbs qərarına məhəl qoymadı, baxmayaraq ki, BCM-nin Roma Nizamnaməsini ratifikasiya etmiş ölkələrdəndir.

Rusiyanın başlatdığı genişmiqyaslı müharibənin lap əvvəlində heç bir Mərkəzi Asiya dövləti Kremlə nə hərbi, nə də siyasi dəstək vermədi. Bu müharibənin birinci ili Rusiyanın bütün cənub qonşuları üçün şok oldu. Ərazi bütövlüyü prinsipi onlar üçün vacibdir, çünki bu, təhlükəsizlik məsələsidir. Lakin onlar da ”işğal” və ya ”təcavüz” kimi birbaşa dildən qaçmağa çalışırdılar.

## Aİ iqtisadi maqnit kimi

Mərkəzi Asiya ölkələri ilə investisiya sazişlərini açıqlayan Avropa Şurasının sədri Antonio Kosta “qaydalara əsaslanan çoxtərəfli nizam”dan danışıb. Bu formula 2022-ci ildən sonra öz suverenliyini möhkəmləndirməyə çalışan Mərkəzi Asiya ölkələri üçün xüsusilə vacibdir. Onlar Ukraynada cəbhə xəttindəki vəziyyəti diqqətlə izləyirlər və Aİ ilə Rusiya arasında “diqqətli strategiya” hazırlamağa çalışırlar, ekspert izah edir. Onun sözlərinə görə, bu ölkələr Avropa İttifaqı ilə iqtisadi əlaqələri genişləndirir, eyni zamanda Rusiyaya ona qarşı tətbiq edilən beynəlxalq sanksiyalardan yan keçməyə kömək edir.

Avropa İttifaqı Mərkəzi Asiya ölkələri üçün investisiya və ticarət baxımından son dərəcə vacibdir. Məsələn, 2023-cü ildə Aİ-nin Mərkəzi Asiya ölkələri ilə ticarətdə payı 22,6%-ə çatıb. Ekspertlər qeyd edir ki, malların əhəmiyyətli bir hissəsi Aİ-yə Rusiya vasitəsilə daxil olur. İqtisadi nöqteyi-nəzərdən Avropa İttifaqı region üçün kritik əhəmiyyət kəsb edir. Amma bu qarşılıqlı əlaqə Rusiyasız mümkün deyil, çünki Mərkəzi Asiya ilə Aİ arasında demək olar ki, bütün logistika Rusiya ərazisindən keçir. Bu arada, Aİ Orta Dəhlizin tikintisini maliyyələşdirir.

## Rusiya regiona təsir edirmi?

Şərqşünas Temur Umarov belə izah edir ki, tarixi kontekstdə Rusiyanın regionda sıx əlaqələri, o cümlədən qeyri-rəsmi əlaqələri və Mərkəzi Asiya siyasi elitasının etimadı var. Umarov deyir: ”Onlar eyni dildə danışırlar və bir-birlərini çoxdan tanıyırlar”. Ona görə də onun fikrincə, Rusiya regionda mövcud siyasi rejimlərin təhlükəsizliyinin əsas təminatçısı olaraq qalır. Bununla belə, Rusiyanın güclü investisiya potensialı yoxdur. 2023-cü ildə Moskva Qazaxıstanda təxminən 2 milyard avroya başa gələn üç istilik elektrik stansiyasının tikintisini maliyyələşdirə bilmədiyini etiraf etdi və layihədən faktiki olaraq imtina etdi. O, izah edir ki, Rusiya əvvəllər öz güc mövqeyindən yararlansa da, 2022-ci ildən sonra özünü getdikcə daha çox sanksiyalardan yayınmaq üçün ticarət tərəfdaşı kimi yerləşdirib.

Nüvə enerjisi və Rusiya qazı

Rusiya Mərkəzi Asiya ölkələrinə də Qazaxıstan və Özbəkistan üçün cəlbedici olan nüvə enerjisi texnologiyaları və karbohidrogenlər kimi sərfəli təkliflər edir. Eyni zamanda, bu ölkələr əvvəllər Avropa üçün nəzərdə tutulan Rusiya qazını alırlar. Bu, bir növ tarixi paradoksdur, çünki sovet dövründə qaz sistemləri əks istiqamətdə qurulmuşdu – Mərkəzi Asiya qazını geri çəkmək üçün yox, onu vurmaq üçün.

Nüvə enerjisi regionda ən çox tələb olunan sahələrdən biridir. Son dörd il ərzində Rusiya bu sektorda üç yeni layihə elan edib. Ən iddialı sazişlər Qazaxıstan və Özbəkistanla olub: Qazaxıstanda Rosatom ölkənin ilk AES-in tikintisi üçün əsas tərəfdaş kimi seçilib, onun gücü təxminən 2,4 GVt, Özbəkistanda isə kiçik və böyük atom elektrik stansiyalarının birləşmiş kompleksi planlaşdırılır. Qırğızıstan hakimiyyəti də oxşar niyyətlərini açıqlayıb. Çin bu layihələrin əksəriyyətində iştirak edir. Tipik olaraq, Rusiya reaktorların təchizatına cavabdehdir, Çin şirkətləri isə avadanlıqların tədarükü, tikintisi və quraşdırılmasına cavabdehdirlər. Onlar heç kimi incitməməyə çalışırlar.

## Çin Rusiyanı sıxışdırır

Çin Rusiyanın regionda əsas alternatividir. Rəqabət 1990-cı illərdən bəri davam edir. Bir tərəfdən Rusiya bütün məsələlərdə əsas tərəfdaş idi, digər tərəfdən isə region ölkələrinin canını qurtarmağa can atdığı monopolist idi. Çin bu asılılığı şaxələndirmək üçün fürsətə çevrilib. Eyni zamanda Mərkəzi Asiya ölkələri Çin, Rusiya, Aİ, Türkiyə, ABŞ, Yaponiya və Cənubi Koreyanın təsirini diversifikasiya etməyə çalışır. Yeni reallıqda bu regionun dövlətləri bütün mühüm oyunçular tərəfindən tələbat olduğunu sübut edib. Onlar bütün bu ölkələrlə C5+ formatlarını işləyib hazırlayıblar (formata beş Mərkəzi Asiya ölkəsi - Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan daxildir).

Rusiya, Çin və Aİ-nin Mərkəzi Asiyaya təsiri bu gün təsir dairələri arasında aydın sərhədləri olmayan mürəkkəb, bir-birinə qarışmış maraqlar sistemini təmsil edir. Bəzi bölgələrdə Moskva, digərlərində Pekin üstünlük təşkil edir və Avropa İttifaqı getdikcə iqtisadiyyatda əhəmiyyətli rol oynayır. Eyni zamanda, ekspertlər qeyd edirlər ki, region ölkələri daha böyük müstəqilliyə can atırlar və öz suverenliyini getdikcə daha da möhkəmləndirirlər. Əgər Mərkəzi Asiya bir vaxtlar “insanların həyəti” adlanırdısa, indi o, özünü tamhüquqlu oyunçu kimi təsdiq etməyə çalışır.

**V.VƏLİYEV**



# Azərbaycan bayrağını Xudafərin körpüsünə sancan qəhrəmanımız



***44 günlük Vətən müharibəsi müstəqil Azərbaycan dövlətinin gənclərinin nə qədər vətənpərvər olduğunu bir daha görstərmiş oldu. Cəmiyyətin aparıcı qüvvəsinə çevrilən gənclər vətənpərvər ruhda tərbiyə almış və hər qarış torpağın müdafiəsində dayanaraq Vətən müharibəsi başlayan gündən könüllü olaraq orduya yazılmaları, Vətən torpaqlarının müdafiəsinə qalxaraq vahid niyyət ətrafında birləşib əzmkarlıqlarını, vətənə sevgsi hissini iradəsi və gücləri ilə göstərmiş oldular. "Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib", - deyə Azərbaycan Prezidenti İlham Əliyev bildirmişdir: "Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi".***

Respublikasının dövlətçilik rəmzləri sırasında yer alan Dövlət Bayrağını hər şeydən uca tutan gənclərimiz qürur mənbəyimiz, and yerimiz olan Bayrağımız qarşısında baş əyərək, müqəddəs varlıq kimi ona and içdilər. Bu Azərbaycan Ordusunun, gəncinin sahib olduğu gücə, bayrağımıza olan dərin məhəbbətindən və sədaqətindən qaynaqlanır. Neçə-neçə gəncimiz vətən torpağının işğaldan azad olunmasına qoşuldu, şəhadətə qovuşdular. Müharibənin şiddətli günlərini yaşayırdıq. Hər gün qələbə sevincini yaşamaqla yanaşı, şəhilərimizin cənazəsini də torpağa tapşırırdıq.

### "ONLAR ÖZ ADLARINI AZƏRBAYCAN XALQININ ŞANLI TARİXİNƏ ƏBƏDİ YAZDIRDI"

1988-ci il iyul ayının 1-də Cəbrayıl rayonunun Qovşudlu kəndində anadan olan Paşayev Elsevər Vaqif oğlunun şəhadətə qovuşması Vətən sevgisi ilə müharibənin qaynar nöqtələrində vuruşduğu zaman olmuşdur. 1994-cü ildə Cəbrayıl rayon 21 saylı ümumi orta məktəbin 1-ci sinfinə gedən Elsevər nə vaxtsa şəhid olacağını heç düşünməmişdi. Amma ilk illərdən vətən torpağının işğalda olduğunu və vətənə çəpər olacaq bir oğul kimi böyüdüyünü yaxşı anlayırdı. 2006-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi məktəbinə daxil olmuş və 2010-cu ildə həmin məktəbi moto-atıcı ixtisası üzrə bitirmişdir. 2011-2013-cü illərdə N saylı hərbi hissədə taqım komandiri, 2013-2018-ci illərdə taqım komandiri – bölük komandiri vəzifələrində xidmət etmişdir. Qəlbi vətən eşqi ilə döyünən Elsevər sanki hərbiçi doğulmuşdur. Çox savadlı idi və beş xarici dil bilirdi. Xarici ölkələrdə xarici hərbiçilərə hərbi təlimlər keçmişdir. Əfqanıstanda Azərbaycandan gedən Sülhməramlıların komandiri olmuşdur. 2014-cü ildə NATO təlimində iştirak üçün Bolqarıstanda, 2015-ci ildə snayper atıcı kursunda iştirak etmək üçün Türkiyə Respublikasında, 2019-cu il Böyük Britaniya krallığında, Çexiyada, Almaniyada və 2019-cu ilin dekabrın 11-dən 2020-ci ilin iyulun 1-nə kimi Əfqanıstanda təlimlərdə iştirak edib. Vətənin bölünməzliyi uğrunda gedən İkinci Qarabağ savaşında 400-ə yaxın əsgərimizi mühasirədən çıxaran E.Paşayev Xudafərin körpüsünə Azərbaycan bayrağını sancmışdır. 25 oktyabr 2020-ci il tarixdə Qubadlı şəhərinin azadlığı uğrundakı döyüşlərdə qəhrəmancasına şəhid olmuş, 2-ci Fəxri xiyabanda dəfn edilmişdir.

Ailəli idi, iki övladı vətənə əmanətdir. Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə, Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə mayor Paşayev Elsevər Vaqif oğlu ölümündən sonra "Qarabağ" ordeni, "Vətən Uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə də təltif edilmişdir.

Azərbaycan üçün önəmli olan Qarabağ münaqişəsi 30 ildən sonra öz həllini tapdı. Torpaq uğrunda ölən varsa, Vətəndir! Qarabağı azadlığa qovuşduran isə müqəddəs şəhidlik məqamına yüksələn neçə-neçə cəsur, mərd qəhrəmanlar oldu.

Ruhunuz şad olsun, igid Vətən oğulları, Azərbaycan sizi heç vaxt unutmayacaq. Onların qəlbimizdə abidələri ucalıb. Şərəfli yol seçərək, şəhidlik zirvəsinə yüksəldilər. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, "Qələbəni biz şəhidlərimizin qanı hesabına qazanmışıq. Şəhidlər bizim qəlbimizdə əbədi yaşayır, yaşayacaq. O insanların ömrü uzun olmadı, amma onlar əbədiyyətə qovuşdu və onlar öz adlarını Azərbaycan xalqının şanlı tarixinə əbədi yazdırdı".

**Nəzakət ƏLƏDDİNQIZI**

# "Nar" "Çoox Şanslı" lotereyasının ilk qaliblərini elan etdi!



Sərfəli mobil operator "Nar" ilsonunda abunəçilərinə sevinc bəxş edən "Çoox Şanslı" lotereyasının ilk qaliblərini elan edib. "Nar" abunəçiləri – Sadiq Sadıqov və Hikmət Hümbətov hər gün oynanılan lotereyada qalib gələrək "Xiaomi Redmi Note 14 Pro" smartfonunun sahibi olublar. Qaliblərin adları təsadüfi seçim əsasında müəyyən edilib və nəticələr canlı yayımda elan olunub. Bu lotereyada ilin sonuna qədər "Nar" abunəçiləri hər gün "Xiaomi Redmi Note 14 Pro" smartfonu, hər həftə "Haval H6 Ultra" avtomobili və finalda "Li L9 Ultra" avtomobili kimi möhtəşəm hədiyyələr qazana bilər.

Xatırladaq ki, "Çoox Şanslı" lotereyasında iştirak etmək üçün "Nar" abunəçiləri sadəcə balanslarını artıra və şans qazandıran "Şanslı" paketlərindən birini aktivləşdirə bilər. Belə ki, 1 AZN-lik "Şanslı" paketinə daxil olan 3 şans və 15 şəbəkədaxili danışıq dəqiqəsini *71#YES;

2 AZN-lik "Şanslı" paketinə daxil olan 7 şans və 35 şəbəkədaxili danışıq dəqiqəsini *72#YES; 3 AZN-lik "Şanslı" paketinə daxil olan 12 şans və 55 şəbəkədaxili danışıq dəqiqəsini isə *73#YES nömrəsini yığaraq aktivləşdirmək mümkündür. Hər balans artımı və ya paket aktivləşdirməsi abunəçiyə əlavə şans qazandırır və qalib olmaq ehtimalını artırır. Abunəçilər topladıqları şansların sayını və iştirak statuslarını "Nar+" tətbiqi və nar.az veb səhifəsindəki xüsusi lotereya bölməsindən rahatlıqla izləyə bilərlər.






# Yox, Cavid əfəndi, yox...

**Mətanət Məmmədova**

***İlin payız fəslinin bu günlərində həmişə böyük ədib Hüseyn Cavidi sayğı və minnətdarlıqla anıram, "kimlər gəldi, kimlər getdi bu dünyadan, İlahi!",- deyərək... Sanki bu günümüz üçün yazılmış əsərlərini bir-bir düşünərək, obrazları ilə söhbətləşərək anıram...***

* * *

Budur, yolda və metroda gördüklərim səhərdən bəri böyük əsərləri ilə xatırladığım ədibin ən kiçik-"Qız məktəbində" əsərini daha çox xatırlatdı mənə və sanki ürəyimdə bu əsərə bir nəzirə yazırmışam kimi pıçıldamağa başladım.

* * *

Cavid Əfəndi, bir qız gördüm, yolda, xeyr, Gülbahar deyildi. Ola da bilməz. İndi ta qızlara Gülbahar, Fatmanisə, Zəhra, Güləbətin isimlərini verən kimdir? Adını da soruşmaram, çünki "sənə nə var"dan başqa eşidəcəyim olmaz.

Atası da olar, anası da, hələ üstəlik babası zəngin də olar bu qızın. Lakin bəyzadə ola bilməz. Çünki bəyzadənin qızı heç inanmıram ki, göbəyini açıb küçəyə çıxa. Bəyzadənin qızının heç inanmıram ki, ətəyi dizindən iki qarış yuxarı ola. İnanmaram ki, bəyzadənin qızı budu, dizi cırıq-cırıq, əti görünən şalvarda küçəyə çıxa...

Xeyr, Gülbahar ola bilməz bəzi qızların adı. Zəngin qızı ola bilərlər, lakin bəyzadənin qızı? Xeyr, əsla mümkün deyil. Çünki bəyzadənin qızı metroda özündən dəfələrlə yaşlı insanların qarşısında çantasından tuş çıxarıb kirpiklərini rəngləməz. Bütün diqqətləri utanmadan, qızarmadan üzərinə çəkməz...

Gülbahar kimi inciləri də var, altın bilərzikləri də bu qızların. Qollarındadır, boyunlarındadır, həm də qatbaqat... Baxdıqca düşünürəm ki, bu inciləri kaş ki, inciyə çevirə bilərdik. Bu bilərzikləri kaş ki, xərcləyib ətəkləri, köynəkləri uzada bilərdik ki, bu qızların göbəkləri, baldırları bayırda qalmasın. Bu bilərzikləri kaş birqatmalı köynəklərin qollarına çevirə bilib, heç olmasa onu iki barmaq edə bilərdik ki, bu qızların qollarının altı bayırda qalmasın...

Onlara da müəllimləri dəfələrlə söyləyir, anaları söyləməsə də, bizlər "onların yox qiyməti, bir qızın ancaq bilgidir, təmizlikdir ziynəti"ni yazmaqdan barmaqlarımız düyün bağlayıb. Lakin indi deyilən söz qulaqlara sırğa kimi asılmır, Cavid əfəndi, bir qulaqdan alınıb, o biri qulaqdan havaya buraxılır.

Bir qızın zinəti həm də astadan danışmaqdır. Lakin yolda-küçədə bəzən qarşına bir dəstə qız çıxır, səslərinin küçədə əks-sədasını eşidirsən, onların yerinə xəcalət çəkirsən. Hələ şaqqıltılı gülüşləri demirəm, Cavid əfəndi...

Bəlkə onlar da Gülbahar kimi Allahı da sevir, ata-analarını, müəllimlərini, bütün insanları da sevirlər. Lakin buna da bir az şübhəm var, Cavid əfəndi.

Soruşsan, nədir şübhən? Deyərəm ki, Allahını sevən o libasları sevməz. Allahın ona bəxş etdiyi gizlində qalmalı əzaları müdam açıqda saxlamaz. Ata-anasını sevən, evdən üzü-gözü tərtəmiz çıxıb, metroda insanların arasında gözlərini boyamaz. Evdən uzun ətəklə çıxıb, blokda onu yuxarı qatlamaz. Evdən çıxandan sonra köynəyin ətəyini yuxarı qaldırıb göbəyini insanlara göstərməz...

Cavid əfəndi, onlar müəllimlərini sevsələr, yolda üzüzə gələndə bir kənara çəkilib ona yol verərlər. Ucadan "salam müəllim, müəllimə", deməklə sevgi bitmir. Sevgi hörmət, sayğıdır...

Gülbahartək bütün insanları sevdiklərinə də şübhəli qalıram. Çünki bütün insanları sevərlərsə, onlara verilən nəsihəti, tövsiyəni də səmimiyyətlə qarşılayardılar, deyilmi?

Cavid əfəndi, sənin Gülbahara verdiyin sualın birini indi bəzi qızlara verməк mümkünmü, sanırsan? Adın nədir, baban varmı, zənginmidir, sənin incilərin, altın bilərziklərin varmı, kimi sevirsən, bəs daha kimi sevirsən??? Yox, Cavid əfəndi, yox... İnanın, bu sualların hər birinə təhqiramiz cavab alarsan.

* * *

Səni gözəl xatırlayıram, Cavid əfəndi, hər zaman. Bu gün də sayğı, hörmətlə xatırladım. Lakin heyiflər olsun ki, cəmiyyətin sağalmaq bilməyən "yaraları"ndan axan çirk ovqatımı tamamilə təlx etdi. Ruhun şad olsun, Hüseyn Cavid əfəndi. Nə yaxşı ki, bizimsən və bizimləsən...

# Dağıdıcı müxalifətə himayədarlıq edib maliyyələşdirilməsi nankorluqdur

***Dəfələrlə qeyd edib həm də yazmışam ki, istər xaricdəki antimilli ünsürlər, istərsə də Azərbaycandakı dağıdıcı müxaliflər ermənipərəst şəbəkəyə bağlı məxluqlardır. Bunu təsdiq etmək üçün uzun-uzadı faktlar göstərməyə, sübutlar ortaya qoymağa ehtiyac yoxdur. Zatən xaricdəki antimilli ünsürlərin özləri dolayısı ilə ermənipərəst dairələrə bağlı olduqlarını dilə gətiriblər.***




Tural Sadıqlı, Sevinc Osmanqızı, Orduxan Bəbirov, Qabil Məmmədov, Orxan Ağayev, Rəfael Piriyev, Abid Qafarov, Məhəmməd Mirzəli, Süleyman Süleymanlı, Arif Məmmədov, Fikrət Hüseynli və digər antimilli ünsürlər əsasən Fransa, İsveçrə, Hollandiya, ABŞ, Almaniya və hazırkı farsmolla rejiminin nəzarət etdiyi torpaqlarda məskunlaşıb, söyüş və təhqir elementlərini ifraz etsələr də, əsas sifarişlərlə yükləndikləri mərkəz Fransadır. Yəni xaricdəki antimilli ünsürlərin fəaliyyətləri əsasən Fransa xüsusi xidmət orqanları tərəfindən həyata keçirilir. Almaniyanın nasist qüvvələri də ara-sıra azərbaycanlı mühacirləri idarə edir və təlimatlarla yükləyir. İndi isə daha ilgic faktlar üzə çıxır. Məlum olur ki, haqqında DTX-nın Baş İstintaq İdarəsində dövlətə xəyanət (CM-nin 274-cü maddəsi), hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama (278-ci maddə), cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması (193-1-ci maddə) ittihamlar irəli sürülən Prezident Administrasiyasının keçmiş rəhbəri Ramiz Mehdiyev və dəstəsi xaricdəki antimilli ünsürlərin və Azərbaycanın dağıdıcı müxalifətli ilə geniş və əhatəli əlaqələrə malik olublar. R.Mehdiyev və dəstəsi ölkəmizin bəzi vətənpərvər insanlarının təhqir edilməsi üçün xaricdəki antimilli ünsürlərə təlimatlar verir, bir-birini gözdən salmaq üçün əmrlər ünvanlayırlar. Hətta mətbuatda yazılanlara görə, R.Mehdiyev və dəstəsi tərəfindən xaricdəki antimilli ünsürlərə 48 milyon ABŞ dolları maliyyə göndərilib.

### Adnan Əhmədzadə nələri etiraf edib?

Xalqa düşmən kəsilən, atributları tənqid, təhqir etməkdən çəkinməyən üzdönük məxluqlardan hər cür yaramazlıq və alçaqlıqlar gözləmək olar. Bunu söz yox ki, Ramiz Mehdiyev və dəstəsinin üzvləri olan sabiq baş nazir Novruz Məmmədov, Qaçqınlarla İş üzrə Dövlət Komitəsinin sabiq sədri Əli Həsənov, Prezidentin sabiq köməkçisi Əli Həsənov, Bakının sabiq meri Hacıbala Abutalıbov, Azərbaycan Prezidentinin keçmiş Mətbuat katibi Azər Qasımov, keçmiş Baş Qərargah rəisi, general Nəcməddin Sadıqov, keçmiş XİN rəhbəri Elmar Məmmədyarov, sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov və keçmiş nəqliyyat naziri Ziya Məmmədov və digərləri bilməmiş deyildilər. Lakin milli varlığımıza qarşı olan qisasçılıq hissi onları mövcud reallığı olduğu kimi dərk etməyə imkan verməyib. Müxtəlif yollarla xaricdə avara küçə həyatı yaşayan antimilli ünsürlərə maliyyə yardımları göstərməklə onları Azərbaycanın atributlarını, şərəfli, ləyaqətli insanları təhqir etməyə məcbur ediblər. Təbii ki, antimilli ünsürlər həbs olunaraq Azərbaycana gətirilsələr hansı vəzifəli şəxsdən, deputatdan, yolunu azan iş adamından nə vaxt, hansı təlimatı aldıqlarını əməkdaşlıq edəcəkləri istintaq orqanlarına çatdıracaqlar. Necə ki, deyilənlərə və mətbuatda yazılanlara görə, iqtisadi təhlükəsizliyimizə təxribatlarda və digər cinayətlərdə ittiham edilən Adnan Əhmədzadə həbs olunduqdan sonra istintaq orqanlarına R.Mehdiyevin və dəstəsinin ölkəmizdə məkrli planlar müzakirə etdiklərini qeyd etmişdir. Söz yox ki, A.Əhmədzadə R,Mehdiyevin və dəstəsinin Azərbaycanın dağıdıcı müxalifəti ilə əlaqələri barədə etiraflarını da dilə gətirib. Bizim də bu yöndə özəl məlumatlarımız və faktlarımız olsa da, qanunvericiliyə əməl etmək məcburiyyətindəyik. Yəni istintaq başa çatmadığı üçün məsələ ilə bağlı olanları qeyd etmək qanunun pozulması kimi dəyərləndirilə bilər. Sadəcə biz mətbuatda yazılanları qeyd edir və bu istiqamətində şərhimizi verməyə çalışırıq.

### Əli Kərimlinin iki avtomobil və 4 mühafizəçi ilə hərəkət etməsinin səbəbi üzə çıxır

Sular durulduqca bir sıra müəmmalı görünən məsələlərə aydınlıq gətirilir. Məlum olur ki, heç bir yerdə işləməyən və gəlir mənbəyinə malik olmayan dağıdıcı müxalifət, xüsusi ilə də AXCP sədri Əli Kərimli, Milli Şuranın rəhbəri Cəmil Həsənli, Müsavatın indiki və keçmiş başqanları İsa Qəmbər və Arif Hacili tam təminatlı həyat yaşayırlar. Düzdür, onların yüksək yaşayışlarının təmin olunmasında xaricdən erməni lobbisinin və müəyyən dairələrin göndərdiyi maliyyə yardımları kömək edə bilir. Kifayət qədər bununla bağlı faktlar mövcuddur. Dəfələrlə müxtəlif şəxslər xaricdən Əli Kərimliyə pul gətirən zaman Azərbaycan sərhəd keçid məntəqəsində saxlanılıblar. Ölkəmizdə müxtəlif təxribatların törədilməsi üçün Əli Kərimliyə maliyyə yardımları göndərən şəxslər ifşa olunub və məhkəməyə çıxarılıblar. Bir qədər əvvəl Rüstəmov Saleh Məhərrəm oğlu, Rüstəmli Vidadi Valeh oğlu, Məhərrəmov Aqil Əli oğlu, Həsənov Babək Qəzənfər oğlu və Nəsirov Ruslan Şamil oğlunun Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilmələrinə dair cinayət işi üzrə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Eldar İsmayılovun sədrliyi ilə çəhkəmə prosesi keçirilmişdir. Məhkəmədə AXCP-nin nəzarət-təftiş komissiyasının üzvü olan Təzəxan Mirələmli ifadəsində göstərmişdir ki, Polşada yaşayan Elturan Rüstəmli onun facebook səhifəsinə yazıb Əli Kərimlinin çıxışlarının niyə görə keyfiyyətsiz olduğunu soruşub, ona deyib ki, ola bilsin kameralar köhnədir. Bundan sonra Elturan ondan xahiş edib ki, bir nəfər tanışı ilə vebkamera və mikrofon göndərəcəkdir, həmin şəxslə görüşüb əşyaları ondan alıb Əli Kərimliyə vermək lazımdır. 2018-ci ilin mart ayında Elturanla əvvəldən vaxtını təyin etdikləri kimi Vidadi ilə Gənclik metrostansiyasının yanında görüşüb, vebkamera və mikrofonu ondan alaraq Əli Kərimliyə çatdırıb.

Sərhəd keçid məntəqəsində saxlanılanların olması və məhkəmədə açıqlan sübutlar onu təsdiq edir ki, həqiqətən də Ə.Kərimli xarici maraqlı dairələr tərəfindən maliyyələşir. Bunlar faktdır və onları inkar etmək Ə.Kərimlinin imkanı xaricindədir. Digər fakt isə Ə.Kərimlinin sözdə R.Mehdiyevi və dəstəsini tənqid edib, əməldə onlarla əməkdaşlıq etməsidir. Bu yerdə tez-tez səslənən bir fikir yada düşür: Müxaliflər əlləri bəzi vəzifə mənsublarının cibindədir. Bugünkü gündəmi zəbt edən R.Mehdiyev olayı təsdiq edir ki, Ə.Kərimlinin əlləri həm də R.Mehdiyevin və dəstəsinin cibində olub. O cib vasitəsi ilə AXCP sədri Əli Kərimliyə, Milli Şuranın rəhbəri Cəmil Həsənliyə, Müsavatın indiki və keçmiş başqanları İsa Qəmbərə və Arif Haciliya 18 milyon manat pul çatdırılıb. Niyə, məqsəd nədir sualına isə, cavab qısadır: R.Mehdiyev və dəstəsi ölkədəki siyasi mühiti iflic halına salmaq üçün dağıdıcı müxalifətdən istifadə edib. Məsələn, seçki mühitini "boykot"la gözdən salmaq üçün AXCP sədri Əli Kərimlini bu məsələyə cəlb edib və icazəsi aksiyalar, qanunsuz piketlər, dövlət əleyhinə şər və böhtanların səslənməsi və digər separatçı addımların atılmasına, fikirlərin söylənilməsinə sövq edilib.

Xatırlatmaq lazımdır ki, bir qədər əvvəl Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı da mətbuata açıqlamasında Ramiz Mehdiyevin Azərbaycana qarşı Əli Kərimli, eyni zamanda şər-böhtan yayan mühacir blogerlərlə əlbir olduğunu bildirmişdir: "Faktiki olaraq, Əli Kərimli 2003-cü ildən sonra birbaşa Ramiz Mehdiyevin çətiri altına keçib".

Dünən və bu gün baş verən proseslərə əsasən demək olar ki, heç zaman Ə.Kərimli R.Mehdiyev və dəstəsi haqqında sərt fikirlər söyləməyib. Hətta müəyyən sətiraltı ifadələrlə R.Mehdiyevin fəaliyyətini dəstəkləməyə yaxın olub. Bu da onun R.Mehdiyev şəbəkəsinə bağlı birisi olduğunu göstərir. Təsdiq olunur ki, Ə.Kərimli və ətrafındakı trolları hər ay R.Mehdiyevdən maliyyə yardımları alıblar. Aylıq hesabın kifayət qədər çox olmasının nəticəsi olaraq Ə.Kərimli Bakı şəhərində iki avtomabillə 4 mühafizəçinin müşayəti ilə hərəkət edir. Ə.Kərimlinin müavinləri Fuad Qəhrəmanlı, Seymur Həzi, Ayaz Məhərrəmli bahalı xarici markalı avtomabillərlə və iki-üç mərtəbəli bağ evlərində, tam təmirli evlərdə təmtəraqlı həyat yaşayırlar. Nəyin hesabına? Təbii ki, əgər 18 milyon Ə.Kərimliyə verilibsə, 8-10 milyon manatda onun müavinlərinə, eləcə də xalqını sevən, dövlətinə bağlı olan şəxsləri söyən trol dəstəsinin üzvlərinə verir.

### Əli Kərimli Ramiz Mehdiyevin dəstəsinin fəallarından hesab olunur

Hesab edirəm ki, Ramiz Mehdiyev və dəstəsinin üzvləri olan sabiq baş nazir Novruz Məmmədov, Qaçqınlarla İş üzrə Dövlət Komitəsinin sabiq sədri Əli Həsənov, Prezidentin sabiq köməkçisi Əli Həsənov, Bakının sabiq meri Hacıbala Abutalıbov, Azərbaycan Prezidentinin keçmiş Mətbuat katibi Azər Qasımov, keçmiş Baş Qərargah rəisi, general Nəcməddin Sadıqov, XİN rəhbəri Elmar Məmmədyarov, sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov, keçmiş nəqliyyat naziri Ziya Məmmədov və digərləri ilə yanaşı Əli Kərimli, Cəmil Həsənli, İsa Qəmbər və Arif Hacılı da məhkəmə qarşısına çıxarılsınlar. Çünki hər iki tərəf eyni iyrənc maraqları ifadə edərək, dövlətə qarşı xəyanət ediblər. Əminliklə demək olar ki, istintaq orqanları Əli Kərimlini, Cəmil Həsənlini, İsa Qəmbəri və Arif Hacılını Ramiz Mehdiyevin və dəstəsinə aid iş üzrə istintaqa cəlb edərsə, çox müəmmalı məsələlərə aydınlıq gətirirlər. Düzdür, dağıdıcı müxaliflər Ramiz Mehdiyevin əlaltısı olduqlarını söyləməkdən çəkinərlər. Lakin sübut və dəlillər ortaya qoyulsa, şahidlər dindirilsə, üzləşmələr aparılsa, ortaya istintaq üçün əsaslı ola biləcək detallar üzə çıxar. Ola da bilsin ki, Ramiz Mehdiyevin gözqamaşdıran bir sıra daşınan və daşınmaz əmlakında dağıdıcı müxalifətində payı var. Yəni bəzi şirkətlər tərəflərin razılaşması əsasında birgə idarə edilə bilər.

Səthi araşdırmalar əsasında məlum olur ki, Ramiz Mehdiyev və dəstəsinin əmlakının dəyəri 135 milyard manatdır. Ən çox əmlaka isə "boz kardinal"ın sahib olduğu qeyd edilir. Mətbuatda onun əmlakının az bir qismi dərc olunub. Onun göz qamaşdıran əmlakının siyahısı belədir: 1. Ramiz Mehdiyevin Novxanıda ucsuz-bucaqsız üzüm bağları, Bakı, Abşeron və Goranboyda əkin təyinatlı 216 hektar torpaq sahəsi var. Novxanı kəndin Mehdiyevlərə məxsus 155 hektar torpaq mövcuddur. Ailənin Goranboyun Xınalı kəndindəki bağının sahəsi 50 hektardır. 2. Maştağa qəsəbəsindəki keçmiş Subtropik Bitkilər Sovxozunun ərazisində Qalina Mehdiyevaya (xanımı) adi 892 sot, Kamilə Əliyevaya (qızı) məxsus 240 sot torpaq var.3. Ramiz Mehdiyevin gəlini Nigar Mehdiyeva "Digital Media" MMC-nin təsisçilərindən biridir. "Digital Media" MMC 20 avqust 2008-ci il tarixdə dövlət qeydiyyatına alınıb. Onun hüquqi ünvanı: Bakı şəhəri, Teymur Əliyev küç. 25 A-dır. Bu şirkət "Medya FM" radiosunun sahibidir.. Kamilə Əliyevanın İstiqlaliyyət küçəsi, ev 11 ünvanındakı mənzili iki şirkətin - "İnfonet" MMC və "Caspian Telekom" MMC-nin hüquqi ünvanıdır.. Dilarə Əliyeva küçəsi, 251A ünvanında Ramiz Mehdiyevin ailə üzvlərinə və onların yaxınlarına aid olan iki mənzil-tikinti kooperativi ("Topaz" MTK və "Qala-R.L" MTK), "NLT" MMC və "Premium Store" MMC yerləşir. Mehdiyev ailəsinə həm də "NLT" MMC, "Servis" MTK, "Grand Palace" MTK, "Astoriya" MTK, "Astoriya Tibb Mərkəzi" MMC və "Qrandezza" MMC də məxsusdur. Astoriya Tibb Mərkəzi 2020-ci ildən "German Hospital" adı altında fəaliyyət göstərir. "Gandezza" ticarət mərkəzi Bakıda, Nizami adlanan ərazidəki 4 mərtətəbəli binada yerləşir. 2014-cü ildə açılışı olan ticarət mərkəzinin 5 min kvadratmetrdən çox sahəsi var.. Ramiz Mehdiyevin gəlini Bank BTB ASC-nin əsas səhm sahibidir - 75%. Yəni bank kapitalının 50 milyon manatı onundur. Bank BTB ASC həm də "BTB Leasing" ASC və "BTB Kapital İnvstisiya Şirkəti" ASC-nin təsisçisidir.7. "Şərq-Qərb" nəşriyyatı Mehdiyevlərə aiddir. Əhmədli qəsəbəsində Aşıq Ələsgər küçəsi, 17 ünvanında yerləşən nəşriyyatın geniş ərazisi var.

Torpağın bir hissəsində dördbloklu, 16 mərtəbəli yaşayış binası tikilib. 408 mənzildən ibarət binanı "Şərq-Qərb Mülk" MMC inşa edib. Bu tikinti şirkəti yaxınlıqda daha bir 16 mərtəbəli yaşayış binası da tikib."Şərq-Qərb" ASC-nin "orbitində" daha bir neçə şirkət ("Şərq-Qərb Nəşriyyat Evi" MMC, "Qlobal East VVest" MMC) var. 8. R.Mehdiyevin "Sədərək" və "Binə" ticarət mərkəzlərinə şərikliyi olduğu iddia edilir.9. Bakının Tiflis prospektində dəbdəbəli villa. Bir müddət əvvəl 8 milyon ABŞ dollarına satışa çıxarılmışdı. 36 sot ərazidə yerləşən bu villanın Mehdiyevin tikdirdiyi çoxsaylı mülklərdən biri olduğu qeyd edilir.10. Ramiz Mehdiyevin Göyçay, Şamaxı, Göygöl və digər ərazilər də daxil olmaqla, ölkənin regionlarında çoxsaylı villalara sahib olması haqda məlumatlar var

Tutduğu vəzifədən sui-istifadə edib dövlətin əmlakına sahib olmaq bağışlanmaz cinayət əməlidir. Yəqin ki, bu və digər amilləri nəzərə alaraq istintaq orqanları R,Mehdiyevin və dəstəsinin əldə etdikləri 135 milyardlıq əmlakın xalqa qaytarılması istiqamətində qətiyyətli tədbirlə gösrəcək.

***İLHAM ƏLİYEV***



qaçqını” statusu ilə yaşayacaq. 30%-ə qədər kənd təsərrüfatı məhsuldarlığı azalacaq. Bu isə qlobal miqyasda iqtisadi sabitliyə, miqrasiya dalğalarına və sosial gərginliyə səbəb olacaq.

### Texnologiyanın rolu: xilas, yoxsa təhlükə?

Bəzi alimlər hesab edir ki, insan texnologiya vasitəsilə bu böhrandan çıxacaq. Məsələn, bərpa olunan enerji mənbələri (günəş, külək, hidroenerji) artıq bir çox ölkədə əsas enerji qaynağına çevrilməkdədir. Digər tərəfdən, “geoengineering” adlanan yeni istiqamət – atmosferə müdaxilə etməklə iqlim tarazlığını bərpa etməyə çalışır. Amma bu yanaşma həm ümid, həm də risk daşıyır. Çünki təbiət sisteminə müdaxilə nəzəriyyədə kömək, praktikada isə yeni fəlakət yarada bilər. Məsələn, süni buludların yaradılması yağıntını dəyişə bilər, amma bu, başqa bölgələrdə quraqlığa səbəb ola bilər.

### Dünya praktikasına nəzər yetirdikdə isə...

Eynşteynin nisbilik nəzəriyyəsində olduğu kimi, iqlim dəyişikliyi də bir sistemin tarazlığının dəyişməsi ilə bağlıdır. Yer kürəsi də nəhəng bir enerji sistemidir; bir yerdəki balans pozulanda, digər bölgələrdə zəncirvari reaksiya yaranır. Filosof James Lovelock bu düşüncəni “Gaia nəzəriyyəsi” ilə açıqlayıb: “Yer özünü tənzimləyən canlı bir orqanizmdir. O, tarazlığı qorumağa çalışır – amma insan müdaxiləsi bu orqanizmi xəstələndirir”. Bu baxımdan iqlim dəyişikliyi təkcə fiziki hadisə deyil, Yer və insan arasındakı münasibətin böhranıdır.

### Etik və mənəvi məsuliyyət

Bəşəriyyətin qarşısında təkcə texnoloji deyil, mənəvi seçim də dayanır: Biz təbiəti idarə etməyə çalışacağıq, yoxsa onunla harmoniya içində yaşamağı öyrənəcəyik? Filosof Hans Jonas deyirdi: “İnsanın texnoloji gücü artdıqca onun məsuliyyəti də artır”. Bu gün iqlim dəyişikliyinə qarşı mübarizə təkcə hökumətlərin deyil, hər bir fərdin etik borcudur. Çünki Yer hamımızın ortaq evidir, və ev yanarkən kimin otağında olduğumuzun fərqi yoxdur.

# Yer kürəsi tükənməyə doğru gedirmi, yoxsa dəyişməyə məhkumdur?

***Son yüz ildə Yer kürəsi tarixinin ən ciddi dönəmini yaşayır. Dəniz səviyyəsi yüksəlir, buzlaqlar ərimədədir, təbiət hadisələri daha sərt, fəsillər isə daha qeyri-sabit hala gəlir. Elm adamları artıq “iqlim dəyişikliyi”ni sadəcə ekoloji problem kimi yox, bəşəriyyətin gələcəyini müəyyən edən ən vacib faktor kimi dəyərləndirirlər. Sənaye inqilabından bu yana atmosferə buraxılan karbon qazı, meşələrin məhv edilməsi, dənizlərin çirklənməsi və nəzarətsiz enerji istehsalı nəticəsində Yer öz tarazlığını itirməyə başlayıb. Hər yeni fırtına, quraqlıq, meşə yanğını və ya istilik dalğası bizə göstərir ki, planet artıq insan fəaliyyətinə reaksiya verir. Bu mövzu sadəcə ekologiya deyil; o, iqtisadiyyat, siyasət, mədəniyyət və insan dəyərləri ilə birbaşa bağlıdır. Əgər iqlim dəyişikliyi bu templə davam edərsə, XXI əsr dünyanın ekoloji nizamının yenidən yazıldığı əsr olacaq.***





### İqlim dəyişikliyinin elmi əsası

İqlim dəyişikliyi – atmosferdəki istixana qazlarının artması nəticəsində Yerin orta temperaturunun yüksəlməsidir. Əsas istixana qazları bunlardır:

Karbon dioksid ($CO_2$)

Metan ($CH_4$)

Azot oksidləri ($N_2O$)

Bu qazlar Günəşdən gələn enerjini Yer səthində saxlayaraq qızma effekti yaradır. Normal halda bu təbii bir prosesdir – amma son iki əsrdə sənaye və nəqliyyat nəticəsində bu balans pozulub. NASA və IPCC (Beynəlxalq İqlim Paneli) məlumatlarına görə, 1880-ci ildən bu yana Yer səthinin orta temperaturu 1.2°C artıb. Bu artım kiçik görünsə də, nəticələri çox böyükdür: buzlaqların əriməsi, okean səviyyəsinin qalxması, su dövranının dəyişməsi və ekosistemlərin sıradan çıxması.

### Təbiət hadisələrinin dəyişən üzü

Əvvəllər yüz ildə bir dəfə baş verən hadisələr indi hər 5–10 ildə təkrarlanır. Məsələn: 2021-ci ildə Kanadada temperatur 49.6°C-ə çataraq rekord qırdı. 2023-cü ildə Avropada 40°C-lik istilər nəticəsində 60 mindən çox insan həyatını itirdi. Eyni ildə Antarktidadakı buz örtüyü tarixdə ilk dəfə 10 milyon kvadrat kilometrdən aşağı düşdü. Bu hadisələr təsadüf deyil — onlar qlobal sistemin dəyişməsinin simptomlarıdır. Klimatoloqlar bu vəziyyəti “planetin qızdırması” adlandırır: Yer öz xəstəliyini artıq “təbii fəlakətlər” vasitəsilə göstərir.

### İqtisadi və sosial nəticələr

İqlim dəyişikliyi yalnız təbiətə deyil, insan həyatına da ciddi təsir göstərir. Quraqlıqlar kənd təsərrüfatını, sel hadisələri şəhərləri, istilik dalğaları isə insan sağlamlığını təhdid edir. BMT məlumatına görə: 2050-ci ilə qədər su qıtlığı 5 milyard insana təsir göstərəcək. 200 milyon insan “iqlim

### Gələcəyə baxış

Elm göstərir ki, hələ gec deyil. Əgər karbon emissiyaları azaldılsa, enerji səmərəliliyi artırılsa və meşə ekosistemləri qorunsa, Yer tarazlığını bərpa edə bilər. BMT-nin Paris Razılaşması bu məqsədlə qəbul edilib – bu razılaşmaya görə, dövlətlər 2050-yə qədər sıfır karbon emissiyasına çatmağı hədəfləyir.

Əgər insan texnologiyanı məsuliyyətlə idarə etməyi bacararsa, XXI əsr tənəzzül dövrü yox, yenidən doğuluş dövrü ola bilər. Çünki bəlkə də təbiət bizə düşmən deyil – o, sadəcə xəbərdarlıq edir.

*Günel Fərzəliyeva*

ARAŞDIRMA

# Quran Oxuyan Qız,1880 - Ziddiyyətli qadın təsviri

*Osman Hamdi Bəy, 19-cu əsrin sonu və 20-ci əsrin əvvəllərində Osmanlı sənət və mədəniyyət sahəsində təsirli şəxsiyyət olmuşdur. O, həm rəssam, həm arxeoloq, həm də muzey təşkilatçısı kimi tanınır və Osmanlı modernləşməsinin vizual və intellektual simalarından biridir. Avropa təhsili almış bir sənətçi kimi, Osman Hamdi Bəy klassik Osmanlı estetik anlayışını Avropa rəssamlıq texnikası ilə birləşdirərək əsərlər yaratmışdır. Onun sənətində həm Qərb realizmi, həm də Osmanlı dekorativ incəsənət elementləri eyni anda görünür. Bu unikal qarışıq onu həm dövrünün, həm də sonrakı nəsillərin diqqətini çəkən sənətkar etmişdir.*



Rəssamın əsərlərində qadın fiquru xüsusi bir yer tutur. Osmanlı cəmiyyətində qadının ictimai və dini həyatı müəyyən qaydalar çərçivəsində formalaşmışdır, lakin Osman Hamdi Bəy qadın obrazlarını yalnız passiv dekorativ elementlər kimi yox, həm də mədəni və sosial kontekstə dair mesaj daşıyan fiqurlar kimi təsvir etmişdir. Bu xüsusiyyət onun əsərlərini sadəcə vizual gözəllikdən çıxarıb dərin sosial təhlil obyekti halına gətirir.

"Quran Oxuyan Qız" əsəri də məhz bu ziddiyyətli yanaşmanın parlaq nümunəsidir. Qadının diz çökərək Quran oxuması dini rituala və ənənəyə bağlılığı ifadə edərkən, açıq saçları, dar və sərbəst geyimi dövrün normativ sosial qaydaları ilə ziddiyyət təşkil edir. Bu, rəssamın qadın, din və fərdi ifadə azadlığı mövzularına müraciətinin incə və düşündürücü nümunəsidir.

Əsərin vizual və simvolik elementlərini analiz edərkən, yalnız qadın fiquruna deyil, həm də Osmanlı cəmiyyətində qadının yerinə, dini pratikalara və mədəni gözləntilərə diqqət yetirmək zəruridir. 19-cu əsrin sonu Osmanlı cəmiyyəti həm ənənəvi, həm də modernləşmə meylləri ilə qarşı-qarşıya idi. Qadınların ictimai həyatı ciddi sosial qaydalarla müəyyən olunurdu: onların geyimi, davranışı və ictimai məkanlarda görünməsi cəmiyyətin gözləntiləri ilə tənzimlənirdi. Bu dövrdə qadınların ictimai və dini rolları arasında ziddiyyətli bir tarazlıq mövcud idi.

Qadınlar, ev daxilində və məscidlərdə dini vəzifələrini yerinə yetirirdilər. Quran oxumaq, dua etmək və dini mərasimlərdə iştirak etmək qadınların gündəlik həyatının mühüm hissəsi idi. Lakin ictimai məkanlarda qadınların görünməsi və xüsusilə saçlarının açıq olması sosial normalara uyğun deyildi. Osman Hamdi Bəyin əsərində qadının diz çökərək Quran oxuması dini rituala bağlılığı ifadə edərkən, açıq saçları və sərbəst geyimi dövrün cəmiyyət qaydaları ilə ziddiyyət təşkil edir (DailyArtMagazine).

"Quran Oxuyan Qız" əsəri sadəcə bir qadının dini ritualını əks etdirmir, eyni zamanda Osmanlı cəmiyyətində qadınlıq, azadlıq və sosial gözləntilər arasındakı gərginliyi də nümayiş etdirir. Qadının diz çökərək Quran oxuması ciddi dini bağlılığı simvollaşdırsa da, açıq saçları və geyim seçimi həmin bağlılığı ziddiyyətli bir kontekstə yerləşdirir. Bu, bir tərəfdən qadının dini ritualının tələblərinə riayət etdiyini Qadının sərbəstliyi yalnız fərdi azadlığı deyil, həm də cəmiyyətin dəyişən normativlərinə və qadın mövqeyinə dair bir dialoqu göstərir. Bu, Osman Hamdi Bəyin qadın təsvirindəki modern yanaşmasının və ziddiyyətli sosial mesajlarının ən aydın nümunəsidir (DailyArtMagazine).

Beləliklə, qadının hər bir detalı (duruşu, baxışı, saçları və ətraf mühitlə qarşılıqlı əlaqəsi) bir-birinə bağlı sosial və mədəni mesajlar daşıyır. Ziddiyyət burada yalnız vizual deyil, qadının dini, sosial və estetik mövqeyi arasındakı mürəkkəb balansı simvollaşdırır. Digər tərəfdən, psixoloji baxımdan onun diz çökərək Quran oxuması diqqətini və daxili dünyasını tamamilə rituala yönəltdiyini göstərir. Bu duruş, qadının həm daxili sükunətini, həm də intellektual konsentrasiyasını ifadə edir. Lakin eyni zamanda açıq saçları və sərbəst geyimi, onun fərdi şəxsiyyətini, cəmiyyətdəki gözləntilərə qarşı olan incə müqavimətini ortaya qoyur. Bu, qadının daxili və xarici dünyası arasındakı gərginliyi vizual olaraq əks etdirir.

Feminizm perspektivindən baxdıqda, əsər qadın bədəninin həm gözəllik, həm də dini simvol kimi istifadəsini araşdırmaq üçün zəngin bir mənbədir. Qadın burada həm cəmiyyətin gözləntilərinə, həm də fərdi seçimlərinə malikdir. Bu aspekt, əsərin feminizm baxımından aktual olmasını təmin edir. Qadın, dini və sosial sərhədlər daxilində öz şəxsiyyətini ifadə edə bilir, amma bu





göstərir, digər tərəfdən isə onun fərdi ifadə azadlığını, estetik və mədəni fərqliliyini ön plana çıxarır.

Əsərin vizual dili bu ziddiyyəti daha da gücləndirir. Qadının mövqeyi, ətrafındakı zərif mozaik naxışlar və işıqlandırma onun həm ciddiyyətini, həm də incəliyini ön plana çıxarır. Saçlarının açıq olması yalnız fiziki bir detal deyil, sosial qaydalarla dini təlimlər arasındakı tarazlığı pozan, gözəgörünməz bir mesajdır. Hamdi Bəy, qadının həm dini ibadətə sadiqliyini, həm də şəxsi və mədəni sərbəstliyini eyni kompozisiyada təqdim edərək, insanları düşünməyə məcbur edir.

Bu ziddiyyət, həmçinin Osmanlı modernləşməsi və Avropa təsirinin qadın həyatına sızmasının vizual simvoludur. ifadə ziddiyyətli və düşündürücüdür.

Əsərin simvolizmi də bu perspektivi dəstəkləyir. Quran oxuyan qadın yalnız dini biliklərin ötürülməsi ilə bağlı deyil, o, həm də cəmiyyətin qadınlara qoyduğu rolları və məhdudiyyətləri sorğulayan bir mədəni simvoldur. Qadının mövqeyi, baxışı və bədən dili tamaşaçıya həm empatiya, həm də düşüncə meydanı açır.

Beləliklə, "Quran Oxuyan Qız" əsəri qadın bədənini, dini ritualları və fərdi ifadə azadlığını birləşdirərək mürəkkəb, çoxqatlı bir sosial və psixoloji analiz imkanı yaradır. Hamdi Bəy qadını həm dini, həm mədəni, həm də feminizm baxımından aktiv və ziddiyyətli bir simvol kimi təqdim edir.

**_Nigar Şahverdiyeva_**

## "Dini tədbirlər və maarifləndirmə peşəkar olmayan şəxslərin əlindədir"

### *DİN XADİMİ DANIŞDI*



"Müasir dövrdə tez-tez səslənən iddialardan biri də gənclərin dinə marağının azaldığı ilə bağlıdır. Lakin bu məsələyə dair Azərbaycanda aparılmış hər hansı rəsmi və elmi statistika yoxdur. Bu səbəbdən bu iddialar daha çox sosial şəbəkələrdəki müşahidələrə və fərdi təəssüratlara əsaslanır. Sosial mediada yayılan ateist meyilli fikirlər, bəzən reallığı əks etdirmir və ya yönlü təbliğat xarakteri daşıyır". Bu sözləri SİA-ya açıqlamasında din xadimi Mircəfər Əyyubov deyib.

O bildirib ki, əgər bu iddialarda müəyyən həqiqət payı varsa belə, əsas səbəblərdən biri dini tədbirlərin və maarifləndirmənin peşəkar olmayan şəxslərin əlində olmasıdır: "Əksər ölkələrdə dinin təbliği rəsmi şəkildə ruhani şəxslər tərəfindən aparılır. Lakin bəzi hallarda dini tədbirlərin radikalizm, ekstremizm və xürafatla eyniləşdirilməsi cəmiyyətdə, xüsusilə gənclər arasında inamsızlıq yaradır. Bundan əlavə, sosial platformalarda dini savadı zəif, xürafat yönümlü və ya qeyri-etik davranışları ilə seçilən şəxslərin "dindar" adı ilə təqdim olunması, dinin mahiyyətinin təhrif edilməsinə gətirib çıxarır. Əsası olmayan fikirlərlə dini ritualların, hökmlərin və adətlərin tənqid edilməsi, əsl din alimlərinə isə söz haqqının verilməməsi, cəmiyyətdə dinə qarşı yanlış təsəvvür yaradır.

Dində yalnız Qurani-Kərim deyil, həm də Həzrət Peyğəmbərin (s.ə.s) sünnəsi və Əhli-Beytin hədisləri əsas qaynaqlardandır. Bu prinsipi nəzərə almadan verilən hökmlər İslamın yarımçıq və yanlış anlaşılmasına səbəb olur. Məsələn, Quranda konkret şəkildə bəzi anlayışların keçməməsi, onların İslamda olmadığı anlamına gəlmir. Hədislər bu boşluğu doldurur və dini anlayışlara izah gətirir. Bu mənfi tendensiyanın qarşısını almaq üçün dini tədbirlərin artırılması, savadlı ruhanilərin təbliğat imkanlarının genişləndirilməsi və gənclərlə birbaşa ünsiyyətin qurulması zəruridir. Ruhanilərə təhsil ocaqlarında çıxış imkanı verilməli, dini mövzuların tədrisi yalnız dini savadı olan şəxslər tərəfindən aparılmalıdır. Əks təqdirdə, gənclər dinə dair informasiyanı ya tamamilə yanlış mənbədən alacaq, ya da ümumiyyətlə ondan uzaqlaşacaq. Bu isə cəmiyyətin mənəvi təməllərinə mənfi təsir göstərə bilər".

**_Səbinə Hüseynli_**

# Rusiya nüvə triadası və nüvə qalxanını gücləndirir: ”Qiyamət təlimləri” necə keçib?

***Xəbər verildiyi kimi, Rusiyada Prezident Vladimir Putinin iştirakı ilə Rusiyanın strateji nüvə qüvvələri üçün təlim keçirilib. Qitələrarası ballistik raketlər və havadan atılan qanadlı raketlər buraxılıb. Təlim strateji çəkindirmə sistemlərinin etibarlılığını nümayiş etdirmək məqsədi ilə təşkil olunub. Ekspertlər nüvə triadasının növbəti 10 il ərzində yenilənəcəyini, o cümlədən süni intellektlə işləyən sürətli kəşfiyyat imkanlarına qarşı mübarizə aparacağını deyirlər.***



Kremlin mətbuat xidmətinin məlumatına görə, “Yars” qitələrarası ballistik raketi Plesetsk sınaq kosmodromundan Kamçatkadakı Kura silsiləsi istiqamətində buraxılıb. Atom enerjili strateji raket sualtı gəmisi “Bryansk” Barents dənizindən “Sineva” ballistik raketini buraxıb.

Təlimdə Tu-95MS uzaqmənzilli təyyarələri də iştirak edərək, havadan atılan qanadlı raketləri buraxıb. Təcrübə atışları Rusiya Federasiyasının Milli Müdafiə Nəzarət Mərkəzindən idarə olunurdu.

Prezident Baş Qərargahla görüşündə təlimin planlaşdırıldığı kimi getdiyini vurğulayıb. Təlimdə qoşunların idarə olunmasının təşkili üzrə əməliyyat heyətinin hərbi komandanlıq və idarəetmə imkanları yoxlanılıb. Bütün döyüş-təlim məqsədləri yerinə yetirilib.

Milli Tədqiqat Universiteti Ali İqtisadiyyat Məktəbinin Kompleks Avropa və Beynəlxalq Araşdırmalar Mərkəzinin (CCEIS) direktoru Vasili Kaşin “Vzglyad” qəzetinə açıqlamasında xatırladıb ki, “Yars” və “Sineva” sistemləri modernləşdirilmiş Sovet konstruksiyalarıdır və onların etibarlılığına çoxdan şübhə yoxdur.





“Təlimdə məqsəd nüvə qüvvələrinin komandanlıq və idarəetmə sisteminin işini təcrübədən keçirmək idi ki, bu da tam olaraq həyata keçirilmişdir”. ”Əlbəttə, yüksək etibarlılıq xüsusiyyətlərini təsdiqləmək üçün vaxtaşırı raket buraxılışları lazımdır”,- Kaşin deyib.

Ekspertin fikrincə, “Yars” və “Sineva” raketləri potensial rəqibin mövcud və perspektivli raketdən müdafiə sistemlərinə nüfuz etməyə qadirdir. ”Bu sistemlər Soyuq Müharibə dövründəki texnologiyalara əsaslanır, lakin sonralar da böyük inkişaf yolu keçib. Topol-M sistemi postsovet dövründə hazırlanıb və “Yars” onun varisi olub. Köhnə prototiplərə əsaslanan ”Sineva” da daha təkmil texnologiyadır”, - deyə məruzəçi izah edib.

Onun sözlərinə görə, ABŞ müxtəlif modifikasiyalarda soyuq müharibə dövründən qalma Minuteman III və Trident raketlərini idarə edir. Müasir Çin ballistik raketləri də 1970-ci illərdəki texnologiyalara, o cümlədən Dongfeng 5-ə əsaslanır. Bərk yanacaqla işləyən Dongfeng-41 ICBM-nin dizaynı 1980-ci illərin ortalarında başlamışdır.

”Belə mürəkkəb sistemlər üçün köhnə əsas dizaynı ardıcıl olaraq inkişaf etdirmək, ona yeni imkanlar vermək tamamilə normaldır. ”Amerika raketlərindəki ayrı-ayrı komponentlər və birləşmələr onların xidmət müddətini uzatmaq üçün dəyişdirildi və daha həssas qoruyucuların quraşdırılması kimi müəyyən dəyişikliklər edildi. Rusiyada daha yeni sistemlər var. Sineva dəqiqliyi, məsafəni və faydalı yükü artırıb və yeni bələdçilik sistemi quraşdırılıb. Bunun əsasında maye yanacaqla işləyən sualtı qayıqlardan buraxılan ballistik raket olan R-29RMU2.1 Layner hazırlanıb”, - deyə Kaşin bildirib.

Öz növbəsində hərbi ekspert Yuri Knutov Vahid Milli Müdafiəyə Nəzarət Mərkəzinin sinxron əməliyyatlarının nümayiş etdirdiyi “nüvə üçlüyü”nün müxtəlif komponentlərinin əlaqələndirilmiş hərəkətlərini xüsusi qeyd edib.

”Bütün hədəflər dəqiq və operativ şəkildə vuruldu. Bu, həmin sistemlərin lazım gələrsə, əks-hücum etməyə hazırlığından xəbər verir. Amma bu təlimlərin əsas xüsusiyyəti odur ki, bu, amerikalılara deyil, ilk növbədə avropalılara xəbərdarlıq idi. Bu gün Avropa İttifaqı Rusiya ilə ciddi münaqişəyə səbəb olan bir sıra addımlar atır”- Knutov deyib.

Onun sözlərinə görə, “Yars” strateji raket sistemi gözlənilməz mövqelərdən zərbə endirə bilər ki, bu da “onu sağ qalma qabiliyyətinin artması ilə təmin edir”. ”Sineva raketi əla uçuş məsafəsi və dəqiqlik nümayiş etdirib. Belə bir raketin, hətta nüvə enerjisi ilə işləyən sualtı qayıqdan belə buraxılması ona ABŞ-ın istənilən nöqtəsində hədəfləri vurmağa imkan verir. Tu-95MS qanadlı raketlərinin istifadəsi artıq adi haldır, çünki Rusiya Hava Hücumundan Müdafiə Qüvvələrinin əməliyyat apardığı ərazilərdə belə silahlardan istifadə edir”, - deyə Knutov vurğulayıb.

Eyni zamanda, bu tip atışları əhatə edən təlimlər həmişə ”bir çox cəhətdən döyüş əməliyyatlarına bənzəyən” xüsusi bir prosesdir. “Hədəflər uğurla vurulduqda, bu o deməkdir ki, təlimlər planlaşdırılmış döyüş hazırlığına uyğun gedir”,- Knutov əlavə edib. O, həmçinin qeyd edib ki, təlimlərdə silos əsaslı raketlərdən daha çox mobil raketlərdən istifadə edilib və bu raketlər “başlanğıc koordinatlarının müəyyən edilməsinin çətinliyi səbəbindən daha çox sağ qalma qabiliyyətinə malikdir”.

Tu-95MS uzaqmənzilli bombardmançılarının istifadəsi köhnə daşıyıcıların müasir qanadlı raketlərlə effektiv inteqrasiyasını nümayiş etdirir- Kaşin vurğulayır. ”Bu, tamamilə təbiidir, çünki effektivdir. Bu halda, təyyarələrin düşmənin hava hücumundan müdafiə sisteminə nüfuz etməsi tələb olunmur. Fiziki cəhətdən, Tu-95MS nisbətən yeni təyyarələrdir, lakin onları 1960-cı illərin əvvəllərinə qədər istehsal edilən və sonra yalnız modernləşdirilmiş Amerika B-52-si ilə müqayisə etmək olmaz. Tu-95MS əvvəlki versiyalardan çox fərqlənir.

Gələcəkdə uzun mənzilli bombardmançı aviasiyasının gücünü və imkanlarını qorumaq üçün təyyarələrin yeni tipləri ilə əvəzlənməsi tələb olunacaq, lakin Tu-95MS gələcək onilliklər ərzində qanadlı raketlər üçün uçan buraxılış qurğuları rolunu yerinə yetirməyə davam edəcək səviyyədədir. Rusiya həm də R-36M2 Voevoda kimi mövcud sistemləri istismardan çıxarmaq və yeni sistemlərlə əvəz etmək vəzifəsi ilə üz-üzədir. Ən önəmlisi Sarmat sisteminin tətbiqidir. İlk raketlər artıq sınaq üçün yerləşdirilib, ümid edirik ki, sistem geniş miqyasda tətbiq olunacaq. O, “Voevoda” raketlərini əvəz edəcək və Rusiyanın strateji nüvə qüvvələrinin döyüş qabiliyyətinin artırılmasına mühüm töhfə olacaq”,- Kaşin proqnozlaşdırır.

Rusiya həmçinin anbarda olan köhnə UR-100N UTTKh (RS-28) qitələrarası ballistik raketlərindən istifadə edən yeni “Avanqard” hipersəs sistemini yerləşdirib. Bundan əlavə, Rusiyanın “Poseydon” nüvə silahı olan torpedo tipli pilotsuz sualtı qayıqları və nüvə enerjisi ilə işləyən, sərhədsiz mənzillə sahib strateji qanadlı raket daşıyan “Burevestnik” kimi yeni sistemləri var”, - deyə Kaşin bildirib.

Knutov isə qeyd edir ki, hava, quru və dəniz əsaslı hipersəs silahlarının inkişafı prioritet olacaq. Artıq Hava Hücumundan Müdafiə Qüvvələrində istifadə edilən “Kinjal” raketlərinə əlavə olaraq, yeni hipersəs sistemlərinin ortaya çıxacağı gözlənilir. ”Rusiya hipersəs silahlarının hazırlanmasında digər ölkələri 5-10 il qabaqlayır. ”Avanqard” kompleksi mövcud raketdən müdafiə sistemləri ilə tutula və vurula bilməz. ”Yasen” sinifli sualtı qayıqlardan buraxılan ”Zirkon” hipersəs raketlərinin sayı da artacaq”,- ekspert qeyd edir.

Eyni zamanda, Kaşin qeyd edir ki, qabaqcıl orta mənzilli sistemlər hazırlanır, çünki Rusiya “yeni reallığa uyğunlaşmaq” problemi ilə üzləşir. “Oreşnik” kompleksindən başqa Rusiya arsenalında getdikcə daha mühüm rol oynayacaq digər sistemlər də hazırlanır, çünki təhlükələrin əhəmiyyətli hissəsi Avropadan gəlir.

”Gələcəkdə hipersəs sistemləri raketdən müdafiə sistemlərinə nüfuz edən vasitə kimi mühüm rol oynayacaq. Lakin bütün raket növləri manevr edən hipersəs sürüşmə vasitələrini daşıya bilməyəcək. Məsələn, ”Sarmat” geniş çeşiddə döyüş başlıqlarını daşımaq üçün hazırlanacaq. Üstəlik, prinsipcə yeni, qabaqcıl strateji nüvə daşıma sistemləri mövcuddur. Bütün bunlar nüvə qüvvələrinə yeni keyfiyyətlər verəcək”- o deyib.

Ekspertlər də razılaşırlar ki, Rusiyanın nüvə qalxanının idarə edilməsi və effektivliyinə yaxın gələcəkdə kiber qüvvələrin və süni intellekt texnologiyalarının inkişafı təsir göstərəcək.

”Yeni reallığın xüsusiyyətlərindən biri süni intellektin sürətli inkişafıdır ki, bu da peyk kəşfiyyatının emal tempini dəyişdirir. Bu, mobil raket sistemlərinin zəifliyini artıra bilər və qismən də dəniz nüvə daşıyıcılarının zəifliyinə təsir edə bilər. Ona görə də eyni vaxtda bir neçə sahəni inkişaf etdirmək və sistemlərin geniş spektrinə malik olmaq lazımdır. Yeni informasiya emalı imkanları “həm taktiki səviyyədə, həm də strateji səviyyədə bütün güc balansını dəyişəcək, çünki onlar real vaxt rejimində məlumat əldə etməyə imkan verir. Sualtı sualtı qayıqların aşkarlanması üçün artıq perspektivli inkişaflar var. Biz strateji nüvə qüvvələrinin tərkibinə və onların inkişafının prioritetinə yanaşmalarımızı dəyişdirməli olacağıq. Buna görə də, hazırda nəyin bahasına olursa-olsun çəkindirmə potensialını təmin etmək üçün tamamilə fərqli sistem tiplərinə investisiyalar yatırılır”, - Kaşin vurğulayıb.

“Havadan müdafiə pilotsuz təyyarələri nüvə silahından istifadə edən bütün Rusiya sistemlərinin arsenalının bir hissəsi olmalıdır. Bu aktivlər sürətlə inkişaf edəcək və nüvə triadasında geniş şəkildə istifadə olunacaq. Bu, daha az qüvvə ilə daha vacib tapşırıqları yerinə yetirməyə imkan verəcək dəqiq zərbələrə aiddir”, - Knutov əlavə edib.

Ekspert hesab edir ki, yaxın onillikdə nüvə qalxanını uzun müddət ərzində saxlamaq və inkişaf etdirmək üçün yeni nəsil mühəndislər, konstruktorlar və hərbi mütəxəssislərin yetişdirilməsi, infrastrukturun, o cümlədən silos mövqelərinin, sualtı bazaların və aerodromların modernləşdirilməsi üçün hər cür səy göstərilməlidir.

”Kaponerlərin və sığınacaqların tikilməsi, strateji aerodromların təhlükəsizliyinin təmin edilməsi əsas prioritet məsələdir. Bu, təkcə bizim hərbçilərimiz tərəfindən deyil, həm də bu strateji təyyarələrin sağ qalmasını təmin edəcək sistemlərin tərtibatçıları tərəfindən həll edilməlidir”, - Knutov qeyd edib.

***Tərcümə - Elçin Bayramlı***

# Yavaş həyat fəlsəfəsi insana nə qazandırır?



**_Gündəlik həyatımızı bir düşünün, yuxudan oyandığımız andan etibarən başlayan təlaşımızı, yaşadığımız qovhaqovu, tələsdiyimiz, qaçdığımız anları. Sizcə də həyatımız sürət qatarı kimi deyilmi? Müasir dünyanın sürət alışqanlığı, qaçaqaç mədəniyyəti bizə rəvan, aram, yavaş yaşama şansı verirmi? Əksəriyyətimiz işdə, evdə, mağazada qısa müddətdə daha çox iş görmək üçün mümkün qədər sürətli hərəkət etmirikmi?_**





Müasir cəmiyyətlərdə sürətli həyat tərzi bir çoxumuza zərurət kimi görünsə də, əslində hər kəsin qarşısını almalı olduğu təhlükəli vəziyyətdir. Özünüzü daha yaxşı hiss etmək, sağlamlığınızı qorumaq və həyat rifahınızı artırmaq istəyirsinizsə, elə bu gündən yavaş yaşamağa başlamalısınız. Xüsusilə böyük şəhərlərdə, meqapolislərdə yaşayan insanların yavaş həyat sisteminə keçməsi zəruridir.

Tədqiqatlar göstərir ki, daim sürətli tempdə yaşamaq, hər şeyi tələsərək etmək həm fiziki, həm də zehni sağlamlığa zərərlidir. Bu, həm də o deməkdir ki, rəvan həyat tərzi ümumi sağlamlığa faydalıdır. Tələsmək streslidir, çünki bədənin hər an qəfil hadisəyə, tələsməyə start vəziyyətində dayanır. Bu, ürək döyüntüsünü artırır, qan təzyiqini qaldırır, əzələləri gərginləşdirir və stress hormonlarını ifraz edir. Daim tələsmək xroniki stresin fiziki və psixoloji təsirlərinə səbəb ola bilər.

Sürətli tempdə yaşamaq stres hormonu kimi də tanınan kortizol səviyyəsini artırır, daha yavaş həyat tərzi sürmək isə qan təzyiqini azaltmaqla kortizol səviyyəsini aşağı salmağa kömək edir. Başqa sözlə, sürətli həyat tərzi stressə səbəb olursa, yavaş həyat tərzi stressi azaldır. Digər tərəfdən, daha yavaş həyat tərzi sürmək hipokampus kimi beyin bölgələrini qoruyur, yaddaşı və öyrənmə qabiliyyətlərini yaxşılaşdırır, zehni sağlamlığı mühafizə edir.

Beyin tələskənliyi hiss etdikdə, həm də adrenalin ifraz edir. Adrenalin qısamüddətli enerji təmin edə bilsə də, davamlı olaraq istehsalı bədən üçün zərərli ola bilər. Sürətli və gərgin həyat sürmək xroniki stresə səbəb ola bilər. Bu, yüksək qan təzyiqi, ürək xəstəliyi, həzm problemləri və zəifləmiş immunitet sistemi kimi sağlamlıq problemləri deməkdir. Sürətli və narahat həyat tərzi, diqqəti cəmləməkdə çətinlik kimi psixoloji problemlərə də səbəb olur.



Bəs bu qədər sürətli yaşamağa öyrəşdiyimiz halda yavaş həyata necə nail ola, yavaş həyat fəlsəfəsini necə öyrənə bilərik? Günə sakit başlamaq rahat və tələsmədən bir gün keçirməyə kömək edə bilər. Əgər zəngli saatınızı mümkün ən son vaxta qurursunuzsa, yuxudan oyananda artıq gecikdiyinizin fərqində olub qəlyanaltı belə etmədən işə qaçırsınızsa gün boyu əhvalınız da qaçhaqaç tempdə olacaq. Günə rahat başlaya bilmək üçün həmişə oyandığınız saatdan bir qədər əvvəl oyanmağınız şərtdir. Gününüzə adət etdiyiniz vaxtdan çox yox, cəmi 15 dəqiqə tez başlasanız nə qədər rahatlıq qazandığınızın fərqində olacaqsınız.

Xüsusilə yemək yemə saatlarına əhəmiyyət vermək lazımdır. Əgər yemək vaxtınız qısadırsa, qarışıqdırsa və ya ayaqüstü qidalanırsınızsa bu tezlikdə səhhətinizdə özünü büruzə verəcək. Yavaş həyat tərzi fəlsəfəsini mənimsəmək üçün ilk növbədə bu adətinizi dəyişməli, kompüter, telefon və planşet kimi texnoloji cihazlar olmadan sakit nahar etməlisiniz. Bu yolla, tələsmədən, narahat olmadan və yeməkdən zövq alaraq nə yediyinizə və içdiyinizə daha çox diqqət yetirə bilərsiniz.

Eyni anda birdən çox iş görməyin, bu sizi daha çox yoracaq. Eyni anda birdən çox tapşırıq yerinə yetirmək beyninizə və zehni sağlamlığınıza mənfi təsir göstərə bilər və zamanla siz eyni anda 2-dən çox iş görməyə başlayacaqsınız. Bu isə eyni anda bir neçə hissəyə bölünmək və daha çox stress altına girmək deməkdir. Buna görə də, bir anda bir tapşırıq yerinə yetirməyə başlayın, sağlam zehinlə daha tez yerinə yetirəcək və sonra ikinci işə də yorulmadan başlayacaqsınız. Nəticədə nə olacaq: siz hər iki işi zamanında yetişdirəcəksiniz, lakin birincidə sizi yoran stres ikincidə sizə yaxın gəlməyəcək.

Vaxtınızdan daha şüurlu şəkildə istifadə edin. Gün ərzində prioritetlərinizi dəqiq müəyyənləşdirin və mütləq ehtiyat vaxt ayırın. Əgər bir işi 20 dəqiqəyə bitirmək məcburiyyətiniz varsa, bunu tələsmədən etməyiniz üçün ehtiyatda olan vaxtınız sizə kömək edəcək. 1 saatlıq işi 30 dəqiqəyə edə bilməyinizlə qürrələnməyin, bu sizə baha başa gələcək. Qənaət etdiyiniz hər dəqiqə, hər saat sizə bir xəstəlik qazandıra bilər. Vaxtınızı düzgün bölüşdürsəniz və potensial uğursuz işiniz olduqda belə o işi yenidən edə bilmək üçün ehtiyyatdakı zamanınız sizə lazım olacaq.





Diqqətli deyilsinizsə sizin həyatınız da çətin olacaq – etdiyiniz işi yenidən etməli olacaqsınız, diqqətsizlik edib nəyisə düz etmədiyiniz üçün. Dayanacaqda daha çox gözləməli olacaqsınız, evdən zamanında çıxıb avtobusa yetişmədiyiniz üçün. Qəlyanaltını ayaqüstü edəcəksiniz, yuxudan gec oyandığınız üçün. Diqqətsizlik sizi çox şeyin üstündən xətt çəkməyə vadar edəcək. Meditasiya və ya nəfəs məşqləri diqqətinizi toplamağa kömək edər, buna vaxtınız olmayanda isə səhərlər sadəcə erkən qalxmağa çalışın. Gündəlik həyatda etdiyiniz kiçik bütün davranışları şüurlu şəkildə yerinə yetirin. Məsələn, qəhvə içərkən yalnız qəhvənin özünə, onun istiliyinə və dadına diqqət yetirin. Yemək yeyərkən ondan həzz alın, biri ilə həmsöhbət olarkən beyninizdə başqa bir şey haqqında düşüncələr olmasın. Mövcud olduğunuz anın dəyərini bilin, bu üsulla yavaş həyat fəlsəfəsini bir o qədər asanlıqla mənimsəyə bilərsiniz.

Başqalarının cəldliyinə, sürətinə, bir anda bir neçə işin öhdəsindən gəlməsinə baxıb heyran olmayın, o özünə yaxşılıq etmir. Başqasının sürətli ritminə aldanmayın, öz bioloji potensialınıza uyğun ritminizi təyin edin və ona sadiq qalın. Xüsusilə böyük bir şəhərdə yaşayırsınızsa, səhər evdən çıxdığınız anda, gün ərzində, tıxacda və pik saatlarda yalnız ətrafınızda qaçan insanları görürsünüz deməli. Sürətli həyat onları hər gün yorur, evdən çıxdığı andan evə qayıtdığı ana qədər bu sürə qatarının içində qaça-qaça yaşayırlar. Düşünün, yavaş həyat fəlsəfəsini tətbiq edib daha rahat həyat yaşamaq daha yaxşıdır, yoxsa oyandığın andan yatdığın anadək tələsərək yaşamaq?

***Lalə Mehralı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması ” istiqaməti çərçivəsində hazırlanıb.*

# Vətəndaş maaşdan tutulmalardan imtina edə bilərmi?



## Deputat mühüm məqamlara aydınlıq gətirdi



***Rəsmi müqavilə ilə çalışan şəxslərin əmək haqqından, Dövlət Sosial Müdafiə Fonduna, Həmkarlar İttifaqına, İcbari tibbi sığortaya, o cümlədən, işsizliyə görə və gəlir vergisi çıxılır. Həmin məbləğlər isə maaşdan kifayət qədər vəsaitin silinməsinə səbəb olur. Bəs görəsən, şəxs öz istəyi ilə həmin vergiləri verməkdən imtina edə bilərmi?***

Məsələ ilə bağlı iqtisadçı-ekspert, millət vəkili Vüqar Bayramov SİA-ya açıqlamasında bildirib ki, ödənişlərin bir qismi icbaridir və icbari ödənişlər təbii ki, məcburi xarakter daşıyır: "İcbari ödənişlərə ilk növbədə vergilər və dövlət tərəfindən müəyyən olunmuş digər məcburi rüsumlar daxildir. Vergilər dövlətin əsas gəlir mənbələrindən biridir və onlar vasitəsilə dövlət büdcəsi formalaşır. Bu vəsaitlər sonradan sosial təminat, təhsil, səhiyyə, infrastruktur, müdafiə və digər ümummilli məqsədlərin həyata keçirilməsinə yönəldilir.

Bundan əlavə, vətəndaş çalışdığı müəssisədə həmkarlar ittifaqı mövcuddursa, həmin ittifaqa da müəyyən üzvlük haqqı ödəyir. Həmkarlar ittifaqları işçilərin hüquqlarını müdafiə edən, onların sosial və iqtisadi maraqlarını qoruyan təşkilatlardır. Belə qurumlara ödənilən məbləğlər işçilərin kollektiv hüquqlarının qorunması, sosial tədbirlərin təşkili və əmək münasibətlərinin tənzimlənməsi üçün istifadə olunur. Eyni zamanda, əgər şəxs əmək müqaviləsi və ya mülki-hüquqi müqavilə əsasında fəaliyyət göstərirsə, o halda icbari tibbi sığorta üçün də ödənişlər həyata keçirilir. İcbari tibbi sığorta sistemi vətəndaşlara dövlət tərəfindən müəyyən edilmiş səhiyyə xidmətlərindən istifadə etmək imkanı yaradır. Bu sistemin məqsədi insanların sağlamlıq hüququnun qorunması, tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi və səhiyyə sahəsində maliyyə sabitliyinin təmin olunmasıdır.

Bütün bu ödənişlər – yəni vergilər, sığorta haqları, həmkarlar ittifaqı üzvlük ödənişləri və digər qanunla müəyyən olunmuş rüsumlar – icbari ödənişlər kateqoriyasına daxildir. Onların ödənilməsi qanunvericiliklə tənzimlənir və dövlət tərəfindən nəzarətdə saxlanılır. Bu ödənişlərin vaxtında və tam şəkildə yerinə yetirilməsi həm vətəndaşın, həm də cəmiyyətin rifahı üçün mühüm əhəmiyyət kəsb edir. Yalnız özəl fondlar və ya digər könüllü istiqamətlərdə edilən ödənişlərdə vətəndaşın seçimi imkanı var. Amma əgər ödəniş icbaridirsə və bu qanunla təsbit olunubsa, o zaman həmin ödənişlər vətəndaş tərəfindən mütləq şəkildə büdcəyə və ya müvafiq rəsmi qurumun hesabına ödənilməlidir".

***Arzu Qurbanlı***

## ELAN

**Kərimov Xəyyam Kərim oğlunun adına verilmiş Binəqədi rayonu Biləcəri qəsəbə bələdiyyəsinə aid üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Gələn ay 12 gün iş olmayacaq



***Azərbaycanda gələn ay ardıcıl 4 gün iş olmayacaq. SİA xəbər verir ki, 8 Noyabr Zəfər Günü, 9 Noyabr isə Dövlət Bayrağı Günüdür.***

Əmək Məcəlləsinə və Nazirlər Kabinetinin müvafiq qərarlarına uyğun olaraq, hər iki tarix şənbə və bazara təsadüf etdiyi üçün noyabrın 10-11-i də qeyri-iş günü olacaq. Ardıcıl dörd gün – 8, 9, 10, 11 noyabr qeyri-iş günü olacaq.

Noyabr ayında şənbə və bazar günləri də daxil olmaqla 1, 2, 8, 9, 10, 11, 15, 16, 22, 23, 29 və 30 noyabr tarixləri qeyri-iş günləridir. Belə ki, ümumilikdə 12 qeyri-iş günü olacaq.

# Şəmkirdə maskalı şəxs ev sahibinə xəsarət yetirib pulları apardı...

Şəmkir rayonunun Kür qəsəbəsində yerləşən evlərdən birinə maskalanmış formada daxil olan naməlum şəxs ev sahibinə küt alətlə xəsarət yetirərək pul vəsaitini ələ keçirib. Polis əməkdaşları tərəfindən qeyri-aşkar şəraitdə törədilən cinayət əməlini törətməkdə şübhəli bilinən qəsəbə sakini, 44 yaşlı Akif Məmmədov müəyyən edilərək saxlanılıb. Faktla bağlı Şəmkir Rayon Polis Şöbəsində araşdırmalar davam etdirilir.




*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**